KHAZAR REVIEW

№ 398-399 Sentyabr-Oktyabr 2020

XƏZƏR XƏBƏR

AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

QARABAĞ AZƏRBAYCANDIR!

AZƏRBAYCANIN VƏTƏN MÜHARİBƏSİ

Azərbaycan ordusu Ermənistanın işğalçı qüvvələrinin iyul ayından başlanan həmlələrinə cavab olaraq sentyabrın 27-də torpaqlarımızın tamamilə işğaldan azad olunması uğrunda əks-hücum əməliyyatlarına başlamışdır. Beləliklə də, ordumuz 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurasının erməni işğalçılarının Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməsi haqqında qəbul etdiyi, lakin sonrakı illərdə icrasız qalmış qətnamələrini icra etməkdədir.

Noyabrın 1-dək, faktiki olaraq, işğal edilmiş rayonlardan 4-ü- artıq ya tamamilə, ya da qismən azad edilmişdir. Həmin rayonların Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri, 170-dən çox kəndi, həmçinin Xocavənd və Tərtər rayonlarının 20-dən çox kəndi düşməndən geri alınmışdır.

AZERBAIJAN'S PATRIOTIC WAR

In response to the attacks of the Armenian occupying forces which started in July, the Azerbaijani army launched a counter-offensive operation on September 27 to completely liberate our lands from the occupation. Thus, our army implements the resolutions of the UN Security Council on the unconditional withdrawal of the Armenian forces from the lands of Azerbaijan, adopted in 1993, but were not implemented in the subsequent years.

As of November 1, in fact, more than 4 of the occupied towns were completely or partially liberated. The cities of Jabrayil, Fizuli, Zangilan, and Gubadli, more than 170 villages of those towns, as well as more than 20 villages of Khojavend and Tartar regions, were taken back from the enemy.

The victory march of the Azerbaijani Army continues.

KARABAKH İS AZERBAIJAN!

İÇİNDƏKİLƏR

Qarabağ Azərbaycandır! "Xəzər" ailəsinin şəhid övladı: Ataməli Musaoğlu . 4
Xəzər Universitetində "Əsgərə sovqat" aksiyası. 8
Xəzər Universiteti "Dünya" məktəbinin "Qarabağ-döyünən ürəyimiz!" aksiyası 9
Ayşən Mustafayeva. Əksəriyyəti tələbə olan gənclərin informasiya savaşı . . 10
Universitet xəbərləri 12
Birinci kurs tələbələrinin universitetlə tanışlığı. 15
Xəzər Universitetindən tərəfdaş olduğu xarici universitetlərə müraciət 20
Ramiz Orucəliyev. Mübadilə proqramı ilə Koç universitetində 22
"Xəzər"in beynəlxalq əlaqələri. 26
Hamlet İsaxanlı. Elm adamı və el adamı 28
"Xəzər" ölkə mediasında 34
Sima Hüseynova. Yenilikçi pedaqoq 38
"Xəzər"in ölkə nəşrləri 41
"Xəzər" xarici mediada 43
Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri 44
"Xəzər"in xarici nəşrləri. 46
Nobel mükafatı laureatları – 2020 54
NDU xəbərləri 58
İlham Taghiyev. Communication-Cognition `Butterfly` (Geometrical Model of Verbal Communication in Case of Ambiguity) 62
İsaxan İsaxanlı. Hədiyyə *(hekayə)* 72

1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Gülcan Kulaxmet

Kompüter tərtibatçısı:
Günel Əkbərova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Gulzhan Kulakhmet

Computer graphics:
Gunel Akbarova
Photo:
Multimedia Centre

“XƏZƏR” AİLƏSİNİN ŞƏHİD ÖVLADI: ATAMƏLİ MUSAOĞLU

Ataməli Musaöğlu 1995-ci il martın 5-də Bakının Lökbatan qəsəbəsində anadan olmuşdur. 228 nömrəli tam orta məktəbi bitirəndən sonra 2012-ci ildə yüksək balla psixologiya ixtisası üzrə BDU-ya qəbul olunmuşdur. 2016-cı ildə bakalavriat təhsilini bitirəndən sonra ordu sıralarında xidmət etmişdir. 2019-cu ildə klinik psixologiya ixtisası üzrə Xəzər Universitetinin magistraturasına qəbul olunmuşdur. 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqının Vətən müharibəsi başlayanda magistraturanın ikinci kurs tələbəsi olan Ataməli könüllü cəbhəyə getmişdir. Oktyabrın 10-da döyüşdə şəhid olmuşdur.

Aşağıda Ataməlinin müəllimi olmuş, Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimovanın şəhidə məktubunu dərc edirik.

ATAMƏLİYƏ MÜƏLLİMƏSİNDƏN MƏKTUB

Salam, dəyərli tələbəm Ataməli... Bilirəm uzaqda və soyuqdasan. Amma bilməyini istəyirəm ki, bizlərə göndərdiyin, ötürdüyün istiliklə hər birimiz isinirik. Burada hava soyuq olsa da, Qələbə xəbərini eşidib hamımız isinir, sənin və dostların üçün darıxırıq...

Səni yada salanda üzümə xəfif bir təbəssüm gəlir. 2019-cu il... Sentyabr ayıdır. İlk dəfə auditoriyaya girdim. Auditoriyada çoxu, həmişəki kimi, qızlardan ibarət idi. Köhnə tələbəm Şimaldan başqa heç birinizi tanımırdım. Auditoriya ilə tanış olmaq məqsədilə özümü təqdim etdim və sizlərlə tanış olmağa başladım. Sən özünü təqdim etdin. Evli olduğunu, işlədiyini, oxumaq arzularını, gələcək planlarını qeyd elədin. 24 yaşın olmasına baxmayaraq - fiziki cəhətdən yaşın özünü göstərsə də - bunları o qədər səmimi, gülər üzlə danışırdın ki, dinlədikcə səni 4-5 yaşlarında həyəcanlı, coşqulu şeir söyləyən və qürurlanan bir uşaq kimi təsəvvür edirdim. Təbii ki, sənin bundan xəbərin yox idi. Yaşın, evliliyin, qızının olması mənim təəssuratlarımı dəyişdirmirdi. Qarşımda orta boylu, qara saçlı, qara gözlü, dəcəl, gülərüz, hərəkətsiz dura bilməyən və “mən böyüyəndə bilirsiniz nələr edəcəyəm?” deyən, böyümək arzusunda olan bir uşaq dururdu. Bu uşaq saf, təmiz, xəyalpərvər, qorxmayan, dostlarına kömək etməyə çalışan, bəzən inadcıl, çox zaman da açıq sözlü idi. Açıq sözlü olsan da, bunu qarşı tərəfi incitmədən etməyə çalışmağın isə ayrı bir ustalıq idi.

Sən danışır, özünü təqdim edir, mən isə bu uşağın gözəl bir gələcəyinin xəyalını qurmağa çalışırdım. Zaman keçdikcə qruptaki hər kəs bir birinə bağlanır və dərsimizin məzmunu etibarilə müxtəlif pasiyent obrazlarını canlandırırdıq. Bu obrazlarda isə mən səni, sənin yaradıcılığını bir daha kəşf edirdim. Sənin yaradıcılığın, ağıllı sualların, mühakimə etmə qabiliyyətin bütün yoldaşlarını düşünməyə vadar edirdi. Bəzən bilərəkdən qıcıqlanacağını və fərqli cəhətdən yanaşmalarını görmək üçün müzakirə sualları ortaya atırdım. Sənin bu suallara yaradıcı cavabların və bu cavabları xüsusi yumor hissi ilə bəzəyərək təqdim etməyin dərslərimizi, münasibətlərimizi daha da ma-

raqlı edirdi. Nigarla xoş rəqabətin, onu "qıcıqlandırmağın" isə qrupun müsbət ab-havasını daha da artırırdı...

Tələbə yoldaşlarına qarşı çox həssas idin. Nəsə olub? - deyə onlardan cavab almaq istəyərdin. Cavabı almayıncaya qədər isə sakitləşmək bilmirdin. Bunları etdiyin zaman yenə dəcəl, sevimli, çox sual verən qarabuğdayı uşağı görürdüm. Bu uşaq başqasının acısına dözə bilməyən, onun dərdinə şərik olmadan sakitləşməyən biri idi.

Mən şanslı idim. Qarşımda gördüyüm bu gəncin təsəvvürümdəki uşaqlığı ilə dostlaşmışdım və sanki anası ilə birlikdə onu böyütmüş və uğurlarına, oyunlarına tamaşa etmişdim. İndi isə artıq gələcək arzularına çatması üçün ona dəstək olmaq istəyirdim.

Ataməli, sən ümidlərini, xəyallarını danışdıqca mənə də bir ilham verirdin və hər müəllimə qismət olmayan ümid hissini mənə yaşadırdın. Gördüyüm işin dəyərliliyini, müqəddəsliyini yadıma salırdın və daha çoxunu etmək üçün düşünməyimi təmin edirdin. Mənə "müəllim, dərsinizdən çox zövq aldım, çox şey öyrəndim" dəyərkən fərqində olmadan da məni, gələcəyə olan ümidimi, sizlərlə əlaqəli xəyallarımı bəsləyirdin. Xəyalımdakı Ataməli, özünün də dediyi kimi, gələcək alimimiz idi. Arzun tədqiqat aparmaq, universitetdə müəllim olmaq və psixologiya sahəsinə töhfə vermək idi. Sən bunları danışdıqca hamımız səni elə belə də təsəvvür edirdik və bunu sənə bildirməsək də, gözlərimiz, üz ifadəmizlə "sən elə buna layıqsən, edə biləcəksən" deyirdik.

Mənim təsəvvürümdəki səmimi, dəcəl, açıq sözlü, zarafatcıl uşaq həm də qarşımda dərs dediyim yetkin, dəyərləri olan bir gənc idi. Zaman keçdikcə bu gənci daha yaxından tanıyır, bir ata kimi, bir həyat yoldaşı kimi yaşantılarını eşidirdim.

Qızın Güllə əlaqədar fikirlərini deyəndə isə gözünün içi gülürdü. Qayğıkeş ata olduğunu hiss etmək heç də çətin deyildi. Bunu bütün bədən dilinlə ifadə edirdin. "Yaxşı ki qızım oldu, çox xoşbəxtəm müəllimə" deyirdin. Axı sən "bağışlayın, üzr istəyirəm övladım" demirdin. Sən bu cümləyə məna verə bilməyən, "qızım olmasa, çox pis olardım" deyən fərqli bir gənc idin. Səmimiliyini və duyğularını olduğu kimi

ifadə etdiyini görüncə sadəcə gülümsəyirdim.Təsəvvürümdəki canlı uşağı yetkin və məsuliyyətli bir ata kimi görmək və ailəsi ilə qürurlanmasını hiss etmək məni sevindirirdi. Güldən, qızından danışmaqdan doymazdın, tənəffüsdə mənə yaxınlaşaraq xüsusi bir tonla "müəllimə, Gülə vaxt ayıra bilməyəndə özümü günahkar hiss edirəm, işləyərək də bəzən çatdıra bilmirəm, yorğun oluram" deyə məsləhət almaq istəyirdin. Mən isə sənin qayğıkeşliyini, məsuliyyətini, atalığını və həyat yoldaşı kimi yaxşı olmağa çalışdığını gördükcə daha da qürurlanırdım. Axı sən çox gənc idin... Gənc olmağına baxmayaraq onlar üçün məsuliyyətinin, sevginin əhəmiyyətinin fərqində idin. Övladına, həyat yoldaşına, ana və atana olan sevgini artıqlaması ilə paylaşmaq, onları xoşbəxt etmək üçün can atırdın. Bunları etsən də, edə bilmədiyin zamanlarda özünü çox günahkar hiss edirdin və mənimlə bölüşmək, rahat olmaq və səhv etmədiyini, yanlış bir şey olmayacağını eşitmək istəyirdin. Mən səni təkcə tələbəm kimi deyil, Gülün atası, Firuzənin sevgi dastanının qəhrəmanı kimi yenidən tanımağa başlayırdım. Sevgin sadəcə bununla məhdudlaşmırdı. Sən Vətənə xidmət etmək, töhfə vermək, fərqli bir cığır açmaq istəyirdin.

Tələbələrinin olmasını, əsərlərinin oxunmasını istəyir, mənalı bir ömrün xəyalları ilə yanıb tutuşurdun...

Auditoriya fərqli bir yerdir. Bura təkcə mühazirə verilən bir məkan deyil. Bura tələbələrlə dəyişdiyin, "böyüdüyün" , ümidləndiyin və bağlandığın bir məkana çevrilir. Dərslərlə yanaşı, tələbələr sənin övladına, varlığının bir parçasına çevrilir və onlarla birlikdə məhsuldar, anlamlı bir təcrübə yaşayırsan. Mən bu məkanda səni tanımağa başladım. Sənin xəyalların da məni həvəsləndirirdi. Yaşlandığım zaman qarşımda tələbəm "Professor Ataməli Musaoğlu" görmək qürurumu oxşayırdı....

Bax beləcə, sizin qrupla 1 ili başa vurduq və axırıncı dəfə sənin lə 28 sentyabr 2020-ci ildə danışdıq. Mənə həyatının ən gözəl qərarlarından birini verərək, təhsilini Xəzər Universitetində davam etdirmək istədiyini və cəbhəyə gedəcəyini bildirdin. Səsində bir qürur, bir sevinc, bir də qeyri-müəyyən bir həyəcan var idi. Telefonda cəbhəyə getməyin xəbərinə tutulduğumu hiss edincə, "müəllimə, hər şey yaxşı olacaq, narahat olmayın" deyib, məni sakitləşdirdin. Telefonu söndürüb düşünməyə başladım...

Həyatın qeyri-müəyyənliyi daima mövcuddur. Bəşər övladı isə bu qeyri-müəyyənlikdə müəyyənlik axtarır və üstəlik plan quraraq onu konkretləşdirmək istəyir. Beləcə mən də dəstəyi asandan sonra tələşımın yersiz olacağını, sənin Vətənə xidmət edib, dönüb təhsilini davam etdirəcəyini, elmi iş yazacağını və layiqli bir vətəndaş kimi özündən sonra gələcək nəsillərə çox faydalı olacağını düşünərək, bir daha sənin lə fəxr etdim və narahatlığımın yersiz olduğuna inanmaq istədim.

16.10.2020 tarixi... Yenə gəldin təzə xəbərlə... Amma bu dəfə mənə göndərdiyin xəbər çox ağır idi Ataməli...Yenə xəyallarımda canlandın. Gülər üzün, dəcəl və şıltaqlığınla, "mən birinci olmaq istəyirəm" deyən uşaq simanla birlikdə, qarşımda ailəsindən, Firuzə və Güldən, ata-anasından, bacısından narahat qalan məsuliyyətli ata və həyat yoldaşı olan gənclə birlikdə gəlmişdin. Uşaqlığın və gəncliyin əl ələ verib qarşımda gülərüzlə mənə baxırdı...

-Müəllimə, sizə sözüm var....

Nəsə bu dəfə üzün gülsə də, səsin çox soyuq idi... Səsinin soyuqluğu məni üşüdür və titrəyirdim... Mən əlindən tutduğun uşaqlığına və qarşımda duran gənçliyinə baxanda səni sanki bir daha kəşf etməyə başlayırdım. Yalnız bu cəsarətli gənc bu ali zirvəyə-şəhidlik zirvəsinə ucala bilər. Sanki gözümün önündə xəyalən böyüyən şıltaq, çox sual verən, sevgi dolu, xeyirxah olan bu uşaq, ailəsini, övladını, xalqını, vətənini və bayrağını belə çoşqu ilə sevən gəncə doğru keçid aldı... Bu gənc birinci olan, qalib olan, düşmən zillətindən xilas olan Vətəni üçün mübarizədə payının olmasını canı bahasına göz önünə ala bilən sən idin...

25 illik qısa bir ömrünlə isə yenə də insanların həyatında iz qoydun... İstədiyin və görmək istədiyin auditoriyanın və tələbələrinin qarşısındasan... Bu səfər onlara həyatınla, sevginlə, əzminlə, coşqunla nümunəsən... Arzuların yarımçıq qaldı deməyəcəyəm... Sən daha böyük tələbə ordusuna çox mənalı, onların yadından çıxmayacaq bir mühazirə deyirsən...Yenə sən auditoriyanın önündəsən... Saf, səmimi və gülər üzünlə gənclərin qarşısındasan və hər şeyə meydan oxuyarcasına məğrur bir şəkildə onlara çalışmağı, sevməyi, sevilməyi, qürurlu olmağı, ümidli olmağı, cəsarətli, məsulliyyətli olmağı və ali hədəflərə özünü həsr edə bilməyi göstərirsən... Qarşındakı gənclər üçün isə bundan böyük dərs, bundan böyük səadət yoxdur... Sənə baxaraq necə gözəl bir müəllim olduğunu görürlər. Sən onlara yaşamağı, sevməyi, çalışmağı, məqsədli, ümidli olmağı, səmimi və dürüst olmağı öyrədirsən... Çünki sən onlara qələbə ruhu verərək, qürurlu, məğrur gəzməyi öyrədirsən... Sən onlara hər işə olan sevginlə nələrə qadir ola biləcəklərini anladırsan, ruh verirsən. Sən bir eşq dastanı yazaraq Firuzələri, Gülləri necə xoşbəxt edə biləcəklərini göstərirsən... Bundan böyük və bundan dəyərli mühazirə dinləmədim Ataməli... Mən də artıq sənın tələbən kimi sənin dərsində və arxada oturaraq, səni dinləyən və səni sevən xalqa baxıram....Sənə heyran olub, səninlə qürur duyurlar və səni incitməmək, dərsini bölməmək naminə aralarında pıçıldaşırlar.

"***Ataməli müəllimin həyatı çox mənalı keçib və bizə danışdıqları keçdiyi mövzudan daha dəyərli oldu... Halal olsun, kaş belə dəyərli müəllimlərimiz çox ola!"***

Mən isə bunları eşidərək kövrəlir, sənin kimi gülümsünür, yanaqlarımdan süzülən sevinc və kədər göz yaşları ilə oyanır və bir daha səninlə qürur duyuram...

Mənim də sənə bir xəbərim var... Qələbə qazandıq... Şuşa azad oldu...Torpaqlarımız azad oldu... Qızın Gül bu torpaqlarda başı dik və qürurlu gəzə biləcək... Anan isə nisgilli, kədərli olsa da, məğrur bir şəkildə "mən oğlumla fəxr edirəm" deyir. Firuzə üçün isə sən yenə bir qəhrəman və sevginin tam mənbəyisən və sən onda yaşamağa və sevgi dastanı yazmağa davam edirsən...

Mənim isə sənə deyəcəklərim çoxdur...Yenə yazacağam....Yeni xəbərlərin müjdəsini verəcəyəm. Qan tökdüyün torpaqlarda, Şuşada həyəcandan səsi titrəyərək azan oxuyan əsgərdən, məscidi qürurla təmizləyən əsgərlərdən, yeni sevgi dastanlarından, xoşbəxt uşaqlardan, kövrələn və torpağını görüb üzü gülən yaşlılardan, həvəslə işləyən, qürurla gəzən gənclərdən yazacağam... Səbrli ol...Yenə tələsirsən bu xəbərlərə... Narahat olma, birinci olmağı və birinci eşitmək istədiyini bilirəm və "birinci" sənə gözəl xəbərləri yazacağam...

İndi isə çətinlik çəkirəm yazmağa... Ruhun şad olsun Ataməli... Rahat yat...

Hörmətlə,
sənin Mələk müəllimən

XƏZƏR UNİVERSİTETİNİN KOLLEKTİVİNDƏN

Universitetimizin şəhidi Ataməli Musaoğlunun atası Seyidməmməd Musayev, anası Leyla Musayeva və həyat yoldaşı Firuzə Musaoğluna, qohumlarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, Allahdan onlara səbr diləyirik.

Qızı Gülə sağ-salamat böyüməyi, uğrunda atasının canını fəda etdiyi Azərbaycanımızın layiqli övladı olmağı arzulayırıq.

XƏZƏR UNİVERSİTETİNDƏ “ƏSGƏRƏ SOVQAT” AKSİYASI
KHAZAR UNIVERSITY'S “CARE PACKAGE TO SOLDIERS”

Xəzər Universitetində oktyabrın 2-dən “Əsgərə Sovqat” - orduya və yaralı əsgərlərə humanitar yardım aksiyası başlanmışdır. Aksiyada universitetin və nəzdində fəaliyyət göstərən Sumqayıt “Dünya” məktəbinin kollektivləri, habelə Türkiyədə təhsil almış bir qrup azərbaycanlı məzunlar iştirak edirlər.

Aksiyanin ilk mərhələsində 200 əsgərə humanitar yardım göndərilmişdir. Bu yardımların bir hissəsi (90 ədəd pled, əlil arabası Sumqayıt “Dünya” məktəbi tərəfindən bağışlandı) yaralılar üçün nəzərdə tutularaq Saatlı xəstəxanasına, digər qismi (110 ədəd pled və geyim) Ağcabədi xəstəxanasına təhvil verilmiş, qalan geyimlər isə cəbhə bölgəsinə yola düşən əsgər konvoylarındakı əsgərlərə paylanmışdır.

Sonrakı mərhələdə Xəzər Universiteti və Sumqayıt “Dünya” məktəbi kollektivlərinin dəstəyi olan 485 manat və 945 manat vəsaitə Türkiyə məzunlarının da yardımı əlavə edilərək, aşağıdakı tədbirlər həyata keçirimişdir:

1 Ağcabədi rayonundakı Təchizat İdarəsinə - 500 ədəd papaq, 504 ədəd əlcək, 100 ədəd isti köynək (vodolazka), 20 ədəd powerbank;

2 Yevlax rayonundakkı Təchizat İdarəsinə -20 ədəd powerbank;

3 Bakıda 6 şəhid ailəsinin hər birinə 200 manat yardım və ziyarət;

4 Şəhidimiz – klinik psixologiya ixtisası üzrə magistr tələbəsi Ataməli Musaoğlunun ailəsinə 500 manat (Türkiyə Məzunları adına) maddi dəstək;

5 Ağdaş rayonunda 2 şəhid ailəsinə 200 manatlıq yardım paketi və bir əsgər ailəsinə 500 manatlıq yardım;

6 Şəkinin Kiş kəndində 3 əsgər ailəsinə 600 manat yardım;

7 Biləsuvarda 1 şəhid ailəsinə 200 manat yardım;

8 Bakıda 20 yaralıya geyim (311 manat dəyərində);

9 Bakıda bir yaralı əsgər ailəsini ziyarət və 200 manat yardım.

Tələbə və şagirdlər “Əsgərə məktub” aksiyası çərçivəsində yüzlərlə məktub da göndərmişlər.

Qeyd edək ki, Xəzər Universitetində başlanan bu aksiya Türkiyədə təhsil almış azərbaycanlı iş adamları, həkimlər, dövlət məmurları, alimlər və dünyanın müxtəlif ölkələrində yaşayan (Türkiyə, Rusiya, Almaniya, ABŞ) məzunlar tərəfindən dəstəkləndi və yardımların həcmi və əhatə dairəsi genişləndi. Hazırda artıq fondun yaradılması və davamlı təqaüdlərin təsis edlməsi istiqamətində iş aparılır.

Xəzər Universiteti çox xeyixah bir işə vəsilə olduqları üçün universitetin, Sumqayıt “Dünya” məktəbinin kollektivlərinə və Türkiyə məzunlarına dərin minnətdarlığını bildirir.

The “Care Package to Soldiers” humanitarian aid campaign started from 2nd of October at Khazar University. Khazar University staff and the Sumgayit “Dunya” School members, as well as a group of Azerbaijani graduates educated in Turkey, are actively participating in this campaign.

In the first stage of the campaign, humanitarian aid was sent to 200 soldiers. Some of this aid (90 blankets, wheelchairs donated by Sumgayit "Dunya" School) was delivered to Saatli Hospital for the wounded, another part (110 blankets and clothes) to Agjabadi Hospital, and the rest was distributed to soldiers in convoys heading to the frontline.

At the next stage, the support of Khazar University and Sumgayit “Dunya” School staff, the 485 manat and 945 manat funds were added with the assistance of Turkish alumni, and the following measures were taken:

1 To the Supply Department in Agjabadi region - 500 hats, 504 gloves, 100 warm sweaters (polo-neck), 20 powerbanks;

2 To the Supply Department in Yevlakh region - 20 powerbanks;

3 Financial support in the amount of 200 manats and visit paid to the families of 6 martyrs in Baku;

4 Financial support in the amount of 500 manats (on behalf of Turkish Alumni) to the family of University's Martyr – Atamali Musaoghlu, master student majored in clinical psychology;

5 Financial support to 2 martyrs' families in the amount of 200 manats and 500 manats aid for one soldier's family in Agdash region;

6 Financial aid in the amount of 600 manats to 3 families of soldiers in Kish village of Sheki;

7 Financial support in the amount of 200 manats to martyr's family in Bilasuvar;

8 Clothing for 20 wounded in Baku (worth of 311 manats);

9 Financial support in the amount of 200 manats and visit paid to the family of a wounded soldier in Baku.

Students and high school students also sent hundreds of letters as part of the “Letter to the Soldier” campaign.

We note that this campaign, which began at Khazar University, was supported by Azerbaijani Turkish alumni businessmen, doctors, government officials, scientists, and also alumni residing in different parts of the world (Turkey, Russia, Germany, and the United States), and the amount of the support and its scope was expanded. Currently, the work on establishing a fund and permanent pensions is in progress.

Khazar University would like to express its deep gratitude to the staff of the University, the Sumgayit “Dunya” School, and the Turkish Alumni for their de-

XƏZƏR UNİVERSİTETİ “DÜNYA” MƏKTƏBİNİN “QARABAĞ - DÖYÜNƏN ÜRƏYİMİZ!” AKSİYASI

KHAZAR UNIVERSITY “DUNYA” SCHOOL'S CAMPAIGN - “KARABAKH - OUR BEATING HEART!”

Xəzər Universitetinin “Dünya” məktəbi “Qarabağ - döyünən ürəyimiz!” aksiyası çərçivəsində cəbhə bölgəsində döyüşən əsgərlərimizə sovqat göndərib. Aksiya müddətində toplanan sovqatlara 100 ədəd isti papaq, 100 ədəd ikiqat əlcək, 320 ədəd yun corab, 100 ədəd iç geyim, tibbi ləvazimatlar – yod, pambıq, pereks, Levomekol mazı, bint, şaxtaya qarşı müxtəlif cür kremlər daxildir.

Oktyabrın 30-da cəbhə bölgəsinə yola salınan sovqatlara “Dünya” məktəbinin şagirdlərinin yazdıqları, əsgərlərə sevgi, istək və zəfər arzularını ifadə edən məktublarda əlavə olunub.

Khazar University's Dunya School organized a campaign entitled “Karabakh - Our Beating Heart!” and within its framework sent care package to our soldiers fighting in the frontline. The package collected during the campaign included 100 warm hats, 100 gloves, 320 woolen socks, 100 underwear, medical supplies - iodine, cotton, peroxide, levomekol ointment, bandages, various anti-frost creams.

The care package sent to the frontline on October 30 included letters written by students of the “Dunya” school, expressing love, prayers and wishes of victory to the soldiers.

XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏ MƏCLİSİNİN ”SƏNİNLƏ FƏXR EDİRİK, AZƏRBAYCAN ƏSGƏRİ” DEVİZİ ALTINDA “ƏSGƏRƏ DƏSTƏK” HUMANİTAR YARDIM AKSİYASI

KHAZAR UNIVERSITY STUDENT ASSEMBLY'S “SOLDIER SUPPORT” HUMANITARIAN AID CAMPAIGN UNDER THE MOTTO “WE ARE PROUD OF YOU, AZERBAIJANI SOLDIER”

Xəzər Universitetinin Tələbə Məclisi oktyabrın 10-dan 30-dək ”Sənlə fəxr edirik, Azərbaycan əsgəri” devizi altında “Əsgərə dəstək” humanitar yardım askiyası keçirmişdir. Aksiya müddətində toplanan yardımlar (40 blok siqaret, 340 cüt qalın corab, 100 ədəd alışqan, 40 ədəd yun papaq, 150 ədəd tibbi maska, 150 ədəd nəm salfetka) “Biz birlikdəyik” könüllü təşkilatı vasitəsi ilə aidiyyatı üzrə göndərilmişdir.

From October 10 to October 30, Khazar University's Student Assembly held a “Soldier Support” humanitarian aid campaign under the motto “We are proud of you, Azerbaijani soldier”. The donations collected during the campaign (40 packs of cigarettes, 340 pairs of warm socks, 100 lighters, 40 woolen hats, 150 medical masks, 150 wet wipes) were sent through the “Biz birlikdəyik” (We are together) volunteer organization.

ƏKSƏRİYYƏTİ TƏLƏBƏ OLAN GƏNCLƏRİN İNFORMASİYA SAVAŞI

2020-ci il oktyabrın 19-da *AzEdu.az* Xəzər Universitetinin 1-ci kurs tələbəsi Nurlana Paşayevanın da iştirakçısı olduğu **#PrayforGanja, #StopArmeniaAgression, #StopArmeniaTerrorism** aksiyası haqqında geniş yazı dərc etmişdir. Yazını oxucularımıza təqdim edirik.

#PrayforGanja, #StopArmeniaTerrorism həştəqləri ilə dünya trendinə daxil olan gənclər *AzEdu.az*-a danışdılar

Hazırda ön cəbhədə olduğu kimi informasiya cəbhəsində də şiddətli müharibə davam edir.

Əksəriyyəti tələbə olan bir çox azərbaycanlı gənc sosial şəbəkələrdə #PrayforGanja, #StopArmeniaAgression, #StopArmeniaTerrorism və başqa bir çox həştəqlər başladaraq dünya trendinə daxil olmağı bacarıblar.

Bir neçə gün bundan öncə Gəncəyə hücum baş verdiyi zaman təkcə #PrayforGanja həştəqi üzrə 1 milyon 240 min tvit atılıb. Bu sahədə onlar erməni işğalçılarının Azərbaycana qarşı törətdiyi cinayətləri, mülki əhalini hədəf almasını, ümumilikdə erməni terrorizmini dünyaya çatdırmağa çalışırlar.

***AzEdu.az* bu gənc tələbələrin təşəbbüsünü yüksək qiymətləndirir və onların bir neçəsini təqdim edir.**

BDU, Jurnalistika fakultəsinin II kurs tələbəsi Sadəgül Cəfərova və Xəzər Universiteti I kurs tələbəsi Paşayeva Nurlana komandaları ilə birlikdə keçirdikləri aksiyanın fəaliyyətindən söz açıblar:

Aksiyanı təşkil etməyimizdə əsas məqsəd sosial şəbəkələr, daha çox da tvitter üzərində aktivlik nümayiş etdirərək bizə qarşı törədilən vandallığı, terrorizmi dünyaya çatdırmaqdır.

Çünki qarşımızda elə bir millət var ki, öz saxta tarixləri haqqında uydurduqları məlumatlara əsaslanaraq bizə zərbə endirməyə, dünyanın gözündən salmağa çalışır.

Biz isə Azərbaycan gəncləri olaraq bunun qarşısını almağa çalışırıq. Elə bu məqsədlə tarixi faktlara əsaslanaraq müxtəlif dillərdə mətnlər hazırlayır və onları seçdiyimiz həştəqlərlə sosial şəbəkələrdə, daha çox tvitterdə yayımlayırıq.

Bununla da Qarabağ həqiqətlərini bacardığımız qədər dünya mediyasına çıxarmağa çalışırıq. Məqsədimiz ermənilərin bizə qarşı törətdiyi soyqırımı və cinayətləri dünyaya çatdırmaq, onlara gerçəyi göstərməkdir.

Dünya görsün ki, biz mülki əhaliyə toxunmuruq, ancaq ermənilərin tarix boyunca əsas hədəfi bizim mülki əhali olub.

Bu olanlara susmamaq, arxa cəbhə olaraq informasiya müharibəsində qalib olmaq, onlara qarşı mübarizə aparmaq üçün gənclərlə belə bir təşkilat yaratdıq. Ümumilikdə tarixi boyunca ermənilərin xalqımıza qarşı törətdiyi cinayətləri tarixi faktlarla, qısa şəkildə dünyaya çatdırmaq istəyirik və inanıram ki, bunun öhdəsindən gəlirik.

Gənclər bu prosesə ilk olaraq iyul döyüşlərində necə başlamalarından bəhs ediblər;

İlk olaraq belə toplaşmağımızın, sosial şəbəkələrdə aktivlik göstərməyimizin əsas səbəbi "İyul döyüşləri" oldu. Hazırki proseslə o zaman arasında əsas fərq budur ki, ilk zamanlarda gəncləri bu məqsədlə bir yerə toplamaq o qədər də asan deyildi. Kimisi istəmirdi, kimisinin həvəsi yox idi. Ancaq sonradan gənclərimiz artıq özləri də gördü ki, buna ehtiyac var, sosial şəbəkələr üzərində aktiv olmağı-

mız bizim üçün daha yaxşıdır. Artıq getdikcə gənclərimiz özləri bizə qoşulmaq, informasiya müharibəsində iştirak etmək üçün müraciət edirdi. Yəni əvvəlki aksiya ilə indiki arasında əsas əsas fərq gənclərin indi daha aktiv olması, say etibarı ilə çoxluq təşkil etməsidir.

Bu mübarizəmizi ermənilərin sosial şəbəkələrdə bizə qarşı saxta iddialarının qarşısını alana, dünyanın onlara deyil də bizə qarşı həyata keçirilən terrorizm və vəhşiliyə inanmaları üçün lazım olduğu zamana qədər davam etdirəcəyik.

"Ölkədə internetin məhdudlaşdırlması sizə nə kimi çətinlik yaradır?"- İnformasiya cəbhəsindəki savaşçıların bu suala cavabı maraqlı olur:

"İnternetin məhdudlaşdırılması bizə mənfi təsir göstərir. Çünki müxtəlif dillərdə mətnlər hazırlayır, fakt olaraq foto və videolardan paylaşımlarda istifadə etməli oluruq və bu zaman internet məhdudluğu səbəbindən çətinlik yaranır. Təəssüf ki, müharibə səbəbi ilə ölkədə internetdən istifadə məhdudlaşdırılıb. Buna görə də müxtəlif proqramlarla interneti aktiv saxlamağa çalışırıq ki, lazım olduğu zaman sosial şəbəkələrdə həqiqəti əks etdirməyən erməni iddialarını ifşa edə, onları susdura bilək. Twitter üzərində isə biz təyin etdiyimiz vaxtda ümumi paylaşımlar edirik. Əlbəttə, bunun özü bizə çətinlik yaradır, çünki internetin daha zəif olduğu zamanlara düşür. Nəzərə almaq lazımdır ki, informasiya müharibəsində qalib olmaq üçün ilk olaraq güclü internetə ehtiyac var.

Gənclər aksiya zamanı məruz qaldıqları virtual təxribata diqqət çəkiblər

"Erməni təxribatçıları tərəfindən sosial şəbəkələrdə hücumlara məruz qalırıq və nəticə olaraq səhifələrimiz bloklanır, bağlanır. Biz lazım olan faktları müxtəlif dillərdə, əsasən rus və ingilis dillərində dünyaya çatdırmağa çalışırıq. Onlar bizim yaymağa çalışdığımız məlumatların doğru olduğunu bilirlər və bunu dünyanın öyrənməsindən qorxduqları üçün səhifələrimizi kütləvi şikayət edərək, yaxud blok etdirərək paylaşımlarımızın qarşısını almağa çalışırlar. Ancaq biz geri çəkilmirik. Lazım gəldikdə eyni zamanda bir neçə hesab və səhifələr yaradaraq informasiya müharibəsini uğurlu şəkildə davam etdiririk. Eyni zamanda bir xüsusiyyətləri də var ki, hər zaman hədə-qorxu gəlirlər, təhdid edirlər. Dünya tərəfindən tanınan bir çox məşhur şəxslərin paylaşımlarına insanların məlumatlandırıması məqsədi ilə rəy olaraq məlumat və faktlar qeyd edirik. Bu zaman onlar bizə hədə-qorxu gəlməyə çalışır, saxta iddialar ortaya atırlar. Ancaq biz bunlara məhəl qoymur və lazım olan şəkildə onlara cavab veririk. Sonda isə məğlub tərəf onlar olur.

Onlar Azərbaycan gəncini informasiya müharibəsində aktiv olmağa səsləyirlər

Hazırda biz mənfur erməni xisləti ilə qarşı-qarşıyayıq. Bu halda Azərbaycan gənclərinə məsləhətimiz budur ki, sosial şəbəkələr üzərində, xüsusi ilə də twitter üzərində gənclərimiz son dərəcə aktiv olsunlar. Çünki nəinki Ermənistan, eyni zamanda onlara dəstək olan digər dövlətlərin vətandaşları da bizə qarşı çıxaraq, əleyhimizə paylaşımlar edir, dünyaya səslənirlər. Biz də bunlara qarşı çıxaraq sosial şəbəkələr, xüsusi ilə də facebook və twitter üzərində aktivlik göstərməliyik. Unutmayaq ki, əsgərlərimiz vətən üçün, bizim üçün səngərdə döyüşürlər, biz də informasiya müharibəsində qalib olaraq onlara dəstək ola bilərik. Erməni yalanlarını ifşa etmək, dünyanın gözünü açmaq üçün gənclərimizdən böyük dəstək və aktivlik gözləyirik. Yalnız bizim qruplara qoşularaq deyil, eyni zamanda özləri fərdi olaraq paylaşım edərək mübarizəmizdə bizə dəstək olsunlar. Azərbaycan gəncinə inanır və onlardan yüksək aktivlik gözləyirik.

Qeyd edək ki, Qarabağ həqiqətlərini dünyaya çatdırmaq, erməni yalanlarını ifşa etmək üçün qeyd etdiyimiz gənclərlə yanaşı bir çox gənclərdən ibarət qruplar vahid məqsəd ətrafında birləşərək informasiya müharibəsində yüksək aktivlik göstərirlər.

Qarabağ Azərbaycandır!

Ayşən Mustafayeva

https://azedu.az/az/news/35864-prayforganja-stoparmeniaterrorism-hesteqleri-ile-dunya-trendine-daxil-olan-gencler-azeduaz-a-danisdilar-informasiya-savascilari

ƏN GƏNC TƏLƏBƏ XƏZƏR UNİVERSİTETİNƏ QƏBUL OLUNDU

THE YOUNGEST STUDENT ADMITTED TO KHAZAR UNIVERSITY

Bu il Xəzər Universitetinə qəbul olunan Yevlax rayon sakini Aynur Əfsəl qızı Bəxtiyarova 15 yaşlı ən gənc tələbədir. A.Bəxtiyarova universitetin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasına qəbul olunmuşdur.

Aynurun sözlərinə görə, arzusu Azərbaycan dili və ədəbiyyatı müəllimi olmaq idi, buna da nail olub: "Beş yaşımda Yevlax rayon 3 saylı orta məktə-bə getdim. Bacımla eyni sinifdə oxumaq üçün təhsilə bir il tez başladım. Dərslərimə hər zaman diqqətlə yanaşdım. Müəllimlərimiz də bizim tələbə adı qazanmağımız üçün əllərindən gələni ediblər. Üçüncü ixtisas qrupu üzrə ali məktəbə imtahan verdim. İmtahanlardan 317 bal topladım. Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi fakültəsinə qəbul olundum. Arzum tələbə adı almaq idi, buna da nail oldum. Çox sevinirəm".

Oxu.az saytı da bu barədə xəbər yayıb:

Aynur Afsal gyzy Bakhtiyarova, a resident of the Yevlakh region who was admitted to Khazar University this year, is the youngest 15-year-old student. A. Bakhtiyarova was admitted to the University to study Azerbaijani language and literature (Teaching).

According to Aynur, her dream was to become a teacher of Azerbaijani language and literature, and she is on the way to achieve her goal: "When I was five, I went to Yevlakh district secondary school No. 3. I started school a year early to study in the same class as my sister. I always paid attention to my lessons. Our teachers did their best to help us to further our studies at the University. I passed the exam for the third major group. I scored 317 points in the exams. I was admitted to Khazar University's School of Azerbaijani Language and Literature. My dream was to become a student, and I succeeded. I am very happy. "

The website *Oxu.az* also reported about it:

https://oxu.az/society/424540

HƏYAT ELMLƏRİ DEPARTAMENTİNİN MÜDİRİ BMT-NİN LAYİHƏSİNDƏ TƏLİMÇİ OLDU

Kənd Təsərrüfatı Nazirliyinin və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (ƏKTT) sentyabrın 9-dan 25-dək təşkil etdiyi "Azərbaycanda iribuynuzlu damazlıq heyvanların effektiv yetişdirilməsi və yemlənməsi sistemlərinin yaradılması yolu ilə iribuynuzlu heyvandarlığın inkişaf etdirilməsi" layihəsində Xəzər Universiteti Həyat elmləri departamentinin müdiri Asəf Ömərov təlimçi kimi iştirak etdi. Təlimdə məqsəd damazlıq işi üçün müvafiq strategiyanın işlənib hazırlanması, süni mayalanma və yemləmə sistemləri üçün xidmətlərin gücləndirilməsi yolu ilə iribuynuzlu heyvandarlıqda məhsuldarlığın yaxşılaşdırılmasıdır. Nəzəri hissəsi onlayn şəkildə keçirilmiş təlimlərin praktik hissəsi hazırda davam edir.

Qeyd edək ki, Asəf Ömərov layihədə ƏKTT-nin yerli məsləhətçisi seçilmişdir.

HEAD OF LIFE SCIENCES DEPARTMENT TAKE ON THE ROLE OF TRAINER IN THE UN PROJECT

From September 9 to September 25, Asaf Omarov, Head of Life Sciences Department at Khazar University, took on the role of a trainer in the project of "Improvement of cattle production through the establishment of effective cattle breeding and feeding systems in Azerbaijan" organized by the Ministry of Agriculture and the Food and Agriculture Organization of the United Nations (FAO). The aim of the training is to improve the productivity of cattle by developing appropriate strategies for breeding, strengthening services for artificial insemination and feeding systems. The theoretical part and the practical part of the online trainings are currently underway.

It should be noted that Asaf Omarov was elected a local consultant of the UN FAO in the previous project.

AQTA-NIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ İLƏ ONLAYN GÖRÜŞÜ

FSA ORGANIZED ONLINE MEETING WITH HIGHER EDUCATION INSTITUTIONS

Sentyabrın 16-da Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən Koronavirus (COVİD-19) pandemiyası dövründə ali təhsil müəssisələrində, həmin müəssisələrin yeməkxanalarında və bufetlərində Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş normalara, sanitar-epidemoloji və gigiyenik qaydalara, habelə, AQTA tərəfindən hazırlanmış metodik göstərişlərə riayət olunmaqla, işlərin təşkili ilə əlaqədar olaraq, ZOOM proqramı vasitəsilə onlayn görüş keçirildi. Görüşdə respublikada fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinin nümayəndələri, o cümlədən Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak edirdilər.

Onlayn görüşdə bir sıra vacib məsələlər müzakirə edildi. Qida Təhlükəsizliyi Agentliyinin nümayəndəsi Əkbər Əliyev pandemiya dövründə həyata keçirilməli olan bir sıra işlər haqqında geniş məlumat verdi və ali təhsil müəssisələrində pandemiya dövründə agentlik tərəfindən hazırlanmış posterlərin yayılmasının vacibliyini vurğuladı.

On September 16, Food Safety Agency (FSA) of the Republic of Azerbaijan held an online meeting via ZOOM platform regarding the conformity to the sanitary-epidemiological and hygienic rules of the higher education institutions, performance of the canteens and cafeterias of these institutions in accordance with the norms approved by the relevant decisions of the Cabinet of Ministers of the Republic of Azerbaijan, as well as to the methodological guidelines developed by FSA, during the coronavirus pandemic. The meeting was joined by representatives of all higher education institutions operating in the country. Number of important issues were discussed at this meeting. Akbar Aliyev, FSA Representative, gave detailed information about a number of activities to be carried out during the pandemic and stressed the importance of disseminating posters prepared by the agency in higher education institutions.

Alovsat Amirbayli, Khazar University's Director for Public Relations and Media, also attended the meeting.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin
Ədliyyə Akademiyası

Qeydiyyat Nömrəsi: TQ-001

SERTİFİKAT

İmtahan Komissiyasının qərarına əsasən

Mələk Kərimova

26.05.2020-ci il tarixdən 13.08.2020-ci il tarixədək Ədliyyə Akademiyasında keçirilmiş 48 saatlıq

"Mediatorların ilkin hazırlıq kursunu"

müvəffəqiyyətlə başa vurmuşdur

Azərbaycan Respublikası, Bakı şəhəri, 02.09.2020

Ruslan Mirzayev

Elçin Xələfov

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI MEDİATOR FƏALİYYƏTİ HÜQUQU QAZANDI

KHAZAR UNIVERSITY MEMBER GAINED THE RIGHT TO ACT AS MEDIATOR

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova 2020-ci il mayın 26-dan avqustun 13-dək Ədliyyə Akademiyası tərəfindən təşkil edilən "Mediatorların hazırlığı və ixtisaslarının artırılması təlim qaydası"na uyğun olaraq, ilkin hazırlıq kurslarında aktiv iştirak etdi və yekun imtahanı uğurla verərək, rəsmi mediator fəaliyyəti ilə məşqul olmaq mərhələsinə keçdi.

Kurslarda beynəlxalq ekspertlər Ruslan Mirzəyev və Adi Qavrilla mediasiya prosesinə aid nəzəri məsələləri izah etdilər və praktiki məşğələlərlə, rollu oyunlarla öyrənmə prosesini dəstəklədilər. Kursun sonunda tədbir təşkil edildi. Tədbirdə Avropa İttifaqının Azərbaycandakı səfiri Kestutis Yankauskas, Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Mediasiya Şurasının İdarə Heyətinin sədri vəzifəsini icra edən Ruslan Mirzəyev çıxış edərək, kursu uğurla bitirənləri təbrik etdilər və mediasiyanın ölkəmiz üçün əhəmiyyətini və məsuliyyətini qeyd etdilər.

Qeyd edək ki, məhkəmələrin iş yükünün azaldılması üçün mediasiyanın tətbiqi ilə əlaqədar olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanına uyğun olaraq, Mediasiya Şurası yaradılmışdır. Mediasiya təlimi qurumu kimi fəaliyyət göstərən Ədliyyə Akademiyası Avropa İttifaqı ilə birlikdə layihə həyata keçirərək, mediasiya üçün təlimçilər hazırlayır.

Melek Kerimova, Coordinator of the Psychology Department at Khazar University, participated in the initial training courses organized by the Academy of Justice from May 26 to August 13, 2020, in accordance with the regulations on "Training and Professional Development of Mediators" and passed the final exam officially gaining the right to act as a mediator. During the courses, international experts Ruslan Mirzayev and Adi Gavrilla explained theoretical issues related to the mediation process and supported the learning process through practical exercises and role-playing games. An event was organized at the end of the course. Speaking at the event, EU Ambassador to Azerbaijan Kestutis Jankauskas, Acting Rector of the Academy of Justice Elchin Khalafov, Acting Chairman of the Mediation Council Ruslan Mirzayev congratulated the successful graduates and noted the importance of mediation for our country and the responsibility to be first.

It should be noted that in connection with the introduction of mediation to reduce the workload of courts, the Mediation Council was established in accordance with the Decree of President Ilham Aliyev dated April 3, 2019 "On the deepening of the reforms in the judicial-legal system". The Academy of Justice, which acts as a mediation training institution, is implementing a joint project with the European Union to train instructors for mediation.

BİRİNCİ KURS TƏLƏBƏLƏRİNİN UNİVERSİTETLƏ TANIŞLIĞI

HUMANİTAR, TƏHSİL VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİNDƏ

ACQUAINTANCE OF FRESHMEN WITH THE UNIVERSITY

AT THE SCHOOL OF HUMANITIES, EDUCATION AND SOCIAL SCIENCES

Oktyabrın 12-14-də Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanlığı əlaqədar departament rəhbərləri və müəllim heyəti ilə birlikdə universitetə qəbul olan tələbələrlə görüş təşkil etmişdir. Görüşdə 1-ci kurs tələbələrinə universitetin yaranma tarixi, təhsil sistemi, beynəlxalq əlaqələri və universitet daxili qaydalar haqqında məlumat verilmişdir.

On October 12-14, the Dean's Office of the School of Humanities, Education and Social Sciences, together with the relevant department heads and faculty members, organized a meeting with the students admitted to the university. At the meeting, first-year students were informed about the history of the University, the education system, international relations, and internal rules of the University.

BİRİNCİ KURS TƏLƏBƏLƏRİNİN UNİVERSİTETLƏ TANIŞLIĞI

İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNDƏ

ACQUAINTANCE OF FRESHMEN WITH THE UNIVERSITY

AT THE SCHOOL OF ECONOMICS AND MANAGEMENT

Oktyabrın 14-də İqtisadiyyat və Menecment fakültəsində 2020-2021-ci tədris ilində tələbə adını qazanmış abutryentlərlə tanışlıq görüşü keçirildi. Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İqtisadiyyat və menecment fakültəsinin dekanı dosent Ceyhun Məmmədov, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, kafedranın koordinatorları, müəllim heyəti və fakültə əməkdaşları iştirak edirdilər.

Rektor dosent İradə Xəlilova tələbələrə ən xoş arzularını bildirərək, universitet haqqında məlumat verdi. Dekan dosent Ceyhun Məmmədov tələbələri təbrik edərək, ixtisaslar və tədris proqramları barədə geniş məlumat verdi.

İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli universitet daxili nizam-intizam qaydalarını tələbələrin diqqətinə çatdırdı.

Eyni zamanda, İqtisadiyyat və menecment departamentinin koordinatorları Ahmed Bahadır Baysal və Asəm Məmmədov, departamentin proffessoru Fuat Rəsulov və müəllimi Qəhrəman Yusupov tələbələri təbrik edərək, onlara uğurlar arzuladılar.

Sonda fakültənin dekan assistenti Bahar İmanova tələbələrə dərs cədvəlini izah etdi, imtahan və nizam-intizam qaydalarını əks etdirən kitabçaları onlara təqdim elədi.

On October 14, an acquaintance meeting was held at the School of Economics and Management with the students admitted in the 2020-2021 academic year. The meeting was attended by Associate Professor Irada Khalilova, Rector of the University, Associate Professor Jeyhun Mammadov, Dean of the School of Economics and Management, Alovsat Amirbeyli, Director for Public Relations and Media, department coordinators, faculty members and staff.

Associate Professor Irada Khalilova expressed her best wishes to the students and provided them with the information about the University. Associate Professor Jeyhun Mammadov congratulated the students and gave detailed information about the majors and programs.

Director of Public Relations and Media Alovsat Amirbayli brought to the attention of students the rules of internal discipline of the University.

At the same time, the coordinators of the Department of Economics and Management Ahmed Bahadir Baysal and Asam Mammadov, professor of the Department Fuat Rasulov and teacher Gahraman Yusupov congratulated the students and wished them every success.

At the end of the meeting, the Deans' Assistant Bahar Imanova explained the schedule of the lessons to the students and presented them with booklets reflecting the rules of examination and discipline.

TƏHSİL NAZİRLİYİ XARİCDƏ DOKTORANTURA TƏHSİLİ ALMAQ HÜQUQU QAZANMIŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞ KEÇİRİB

Oktyabrın 23-də Təhsil Nazirliyi **"**2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı**"** çərçivəsində 2020-ci ilin payız semestri üçün xaricdə doktorantura təhsili üzrə müsabiqənin qalibləri ilə onlayn görüş keçirmişdir.

Görüşdə Təhsil naziri Emin Əmrullayev, Təhsil Nazirliyindən, və Dövlət Proqramı İdarəetmə Qrupundan digər səlahiyyətli nümayəndələr və müsabiqənin 23 nəfər qalibi iştirak etmişlər. Təhsil naziri və digər çıxış edənlər 54 nəfər namizəd arasında gərgin yarış şəraitində fərqlənmiş qalibləri təbrik etmiş, onlara uğurlar arzulamışlar. Tələbələr xarici ölkələrdə təhsil alacaqları universitetlərdə etimadı doğruldacaqlarını bildirmişlər.

Görüşdə Proqram iştirakçıları ilə üçtərəfli müqaviləni imzalamış tərəfdaş yerli ali təhsil müəssisələri arasında Xəzər Universitetinin ön sıralarda yer alması qeyd olunmuşdur.

Tədbir haqqında *dp.edu.az* saytı xəbər yayımlamışdır:

http://dp.edu.az/az/news/1054?fbclid=IwAR2xm-3wj1ukO0kOz88b3FBNzoeJ5E0Pc9KU-tqMWmeW4Q95-7OD-b7mh0k#.X7VxG2gzZPY

MINISTRY OF EDUCATION HELD MEETING WITH STUDENTS WHO WON THE RIGHT TO STUDY FOR DOCTORATE ABROAD

On the 23rd of October 2020, the Ministry of Education held an online meeting with the winners of the competition for doctoral education abroad for the fall semester of 2020 in the framework of the "State Program to increase the international competitiveness of the higher education system in the Republic of Azerbaijan for 2019-2023".

The meeting was attended by the Minister of Education Emin Amrullayev, other authorized representatives from the Ministry of Education, the State Program Management Group and 23 winners of the competition. The Minister of Education and other speakers congratulated the winners of the competition among 54 candidates and wished them success. The students said they would justify their confidence in the universities wherethey will study abroad.

It was noted at the meeting that Khazar University is at the forefront of the partner local higher education institutions that have signed a tripartite agreement with the Program participants.

The website dp.edu.az published news about the event:

http://dp.edu.az/en/news/1054?fbclid=IwAR2xm-3wj1ukO0kOz88b3FBNzoeJ5E0Pc9KU-tqMWmeW4Q95-7OD-b7mh0k#.X7VxG2gzZPY

BİRİNCİ KURS TƏLƏBƏLƏRİNİN UNİVERSİTETLƏ TANIŞLIĞI

TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİNDƏ

ACQUAINTANCE OF FRESHMEN WITH THE UNIVERSITY

SCHOOL OF SCIENCE AND ENGINEERING

Oktyabrın 15-16-da Təbiət elmləri və mühəndislik fakültəsində 1-ci kurs tələbələri ilə tanışlıq görüşü keçirildi. Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor dosent İsaxan İsaxanlı, Təbiət elmləri və mühəndislik fakültəsinin dekan əvəzi Dr. Fəxrəndə Əlimərdanova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, departament müdirləri, müəllim heyəti və fakültə əməkdaşları iştirak edirdilər.

İlk öncə tələbələrə Xəzər Univeristeti haqqında qısa film nümayiş etdirildi. Sonra rektor dosent İradə Xəlilova tələbələri təbrik edərək, universitet haqqında ətraflı məlumat verdi. Prorektor dosent İsaxan İsaxanlı tələbələrə Xəzər Universitetini seçməklə çox doğru seçim etdiklərini bildirdi, univesitetin beynəlxalq təşkilatlarla əməkdaşlığı, həmçinin Mübadilə proqramı çərçivəsində təhsil almaq imkanları haqqında danışdı. Dekan Dr. Fəxrəndə Əlimərdanova ixtisaslar və tədris proqramları barədə geniş məlumat verdi. İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli universitet daxili nizam-intizam qaydalarını tələbələrin diqqətinə çatdırdı.

Eyni zamanda, Riyaziyyat departamentinin müdiri Dr. Əli Hüseynli və İnşaat mühəndisliyi departamentinin koordinatoru dosent Rasim Bayramlı tələbələri təbrik edərək, onlara uğurlar arzuladılar.

Fakültənin dekan müavini Vəfa Aslanova dərs cədvəli haqqında izahat verdi və tələbələrə universitetin nizam-intizam qaydalarına aid kitabçalar payladı.

On October 15-16, an introductory meeting with first-year students was held at the School of Science and Engineering. Associate Professor Irada Khalilova, Rector of Khazar University, Associate Professor Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs, and Dr. Fakhranda Alimardanova, Acting Dean of the School of Science and Engineering, Alovsat Amirbeyli, Director for Public Relations and Media, heads of the departments, faculty and staff members were present at the meeting.

First, the students were shown a short film about Khazar University. Then Associate Professor Irada Khalilova congratulated students and gave them detailed information about the University. Associate Professor Isakhan Isakhanli addressing the students emphasized that they had made the right choice in choosing Khazar University, and spoke about the University's cooperation with international organizations, as well as opportunities provided to study under the Exchange Program. Following that Dr. Fakhranda Alimardanova gave detailed information about majors and programs to students. Alovsat Amirbayli, Director for Public Relations and Media, brought to the attention of students the rules of internal discipline of the University.

At the same time, Associate Professor Nuru Safarov the Head of the Department of Physics and Electronics, Dr. Asaf Omarov the Head of the Department of Life Sciences, Dr. Ali Huseynli, the Head of the Department of Mathematics, and Associate Professor Rasim Bayramli, Coordinator of the Department of Civil Engineering, congratulated the students and wished them every success.

At the end of the meeting, the vice dean of the faculty Vafa Aslanova explained the lesson schedule to the students, and distributed booklets reflecting the rules of examination and discipline.

KHAZAR

XƏZƏR UNİVERSİTETİNDƏN TƏRƏFDAŞ OLDUĞU XARİCİ UNİVERSİTETLƏRƏ MÜRACİƏT

KHAZAR UNIVERSITY APPEALS TO ITS PARTNER UNIVERSITIES WORLDWIDE

Xəzər Universiteti dünyanın 30-dan çox ölkəsində tərəfdaş olduğu 60-dan çox universitetinə, o cümlədən Bolonya Universiteti (İtaliya), Kaliforniya Dövlət Universiteti (ABŞ), Döshisha Universiteti (Yaponiya), Middlesex Universiteti (İngiltərə), Montpellier Universiteti (Fransa), Ballarat Universiteti (Avstraliya), Niderland Biznes Akademiyası (Niderland), Varşava İqtisadiyyat Universiteti (Polşa), Hallym Universiteti (Cənubi Koreya), Babes-Bolyai Universiteti (Rumıniya), Varna Menecment Universiteti (Bolqarıstan) və digər universitetlərə Azərbaycanın öz torpaqlarını Ermənistan ordusunun işğalından azad etmək uğrunda apardığı Vətən müharibəsi ilə əlaqədar müraciət ünvanlamışdır.

Müraciətdə qeyd olunur ki, keçən əsrin 90-cı illərinin əvvəlində Ermənistan ordu yeridərək Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı ətrafindakı 7 rayonla birlikdə işğal etmiş, qondarma "Dağlıq Qarabağ Respublikası" yaratmışdır. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurasının erməni işğalçılarının Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməsi haqqında qəbul etdiyi dörd qətnamə sonrakı illərdə icrasız qalmışdır. ATƏT-in ABŞ, Fransa və Rusiyadan ibarət yaratdığı Minsk qrupu da ötən 28 il ərzində həmin qərarların icrasına nail olmamış, yaxud buna səy göstərməmişdir. Havadarlarına arxalanan Ermənistan bu ilin iyul ayından başlayaraq Azərbaycanın yeni torpaqlarını zəbt etmək üçün döyüşlərə başlamış, lakin Azərbaycan ordusunun əks-hücum əməliyyatları ilə geri oturdularaq, Azərbaycanın işqal olunmuş torpaqlarının artıq müəyyən hissəsi düşməndən azad edilmişdir.

Müraciətdə o da qeyd olunur ki, Ermənistan müvafiq beynəlxalq konvensiyaları cinayətkarcasına pozaraq, Azərbaycanın döyüş bölgələrindən uzaqda yerləşən şəhər və kəndlərinə bomba və raket atəşləri yağdıraraq, mülki əhalinin – ahılların, qadın və uşaqların qətlə yetirilməsinə səbəb olur.

Müraciətin sonunda Azərbaycanın ədalətli mübarizəsini, haqq işini dəstəkləmək çağırışı ifadə olunur.

Khazar University addressed an appeal regarding the ongoing Patriotic War of Azerbaijan that aims to liberate the territories under the Armenian occupation to its partner universities. The appeal was made to 60 partner universities in more than 30 countries, including but not limited to the University of Bologna (Italy), California State University (USA), Doshisha University (Japan), Middlesex University (UK), Montpellier University (France), Ballarat University (Australia), Dutch Academy of Business (Netherlands), Warsaw University of Economics (Poland), University of Cadiz (Spain), Hallym University (South Korea), Babes-Bolyai University (Romania), Varna University of Management (Bulgaria), and other universities.

The appeal indicates that in the early 1990s Nagorno-Karabakh region of Azerbaijan and other seven surrounding towns were occupied by Armenia, and thus, Armenia artificially created the so-called "Nagorno-Karabakh Republic" in Azerbaijan's historical lands.

In response to occupation and ethnic cleansing, the UN Security Council passed four resolutions demanding immediate and unconditional withdrawal of Armenian troops from occupied Azerbaijani territories. However, these resolutions remained unfulfilled in subsequent years. The OSCE Minsk Group, co-chaired by the United States, France, and Russia, has also failed to implement or make efforts to execute the resolutions of the UNSC over the past 28 years.

Leaning on its supporters, Armenia launched a new war to capture further Azerbaijani territories in July and September of 2020. However, the successful counter-offensive operations of Azerbaijani Army repulsed the attack and enabled to liberate certain parts of the occupied territories.

The appeal also states that Armenia appallingly violates relevant international conventions by shelling reactive and ballistic missiles at densely populated residential areas of Azerbaijan located far from the conflict zone. Armenia's deliberate and indiscriminate bombardment resulted in civilian casualties, including the elderly, women, and children.

At the end of the appeal, a call is made to support Azerbaijan's legitimate and rightful cause in the restoration of territorial integrity and justice.

PROFESSOR HAMLET İSAXANLININ SÖZLƏRİNƏ SSRİ XALQ ARTİSTİ MURAD KAJLAYEVİN BƏSTƏLƏDİYİ “SEVGİ HAQQINDA” ROMANS SİLSİLƏSİ YENİDƏN İFA OLUNUB

PROFESSOR HAMLET ISAKHANLI'S SERIES OF POEMS “ABOUT LOVE” PUT TO MUSIC BY PEOPLE'S ARTIST OF THE USSR MURAD KAJLAYEV RE-PERFORMED

Məlum olduğu kimi, SSRİ Xalq artisti bəstəkar Murad Kajlayev Hamlet İsaxanlının bir qrup sevgi şeirlərinə “Sevgi haqqında” (О любви) adlı romans silsiləsi bəstələmişdir. Yaroslavl (Rusiya Federasiyası) Dövlət Filarmoniyasının aparıcı solisti, beynəlxalq mükafatlar laureatı Albina Xripkova (Альбина Хрипкова) bu romansları yenidən ifa etmişdir. Həmin ifa aşağıdakı linkdə:

As it is known, People's Artist of the USSR composer Murad Kajlayev put to music the series of love poems “About Love” by Hamlet Isakhanli. Leading soloist of the Yaroslavl (Russian Federation) State Philharmonic, laureate of international awards Albina Khripkova reperformed these romances. The performance can be viewed through the following link:

https://yadi.sk/i/d8cgPE9fbyMB9A

ELMİ ŞURANIN İCLASI

Oktyabrın 26-da Xəzər Universiteti Elmi şurasının yeni dərs ilində ilk iclası keçirildi. Universitetin rektoru dosent İradə Xəlilova iclası açaraq, gündəlikdəki ilk məsələ kimi biologiya üzrə fəlsəfə doktoru Səidə Şərifovanın Elmi Şuranın katibi seçilməsi təklifini verdi. Şura üzvləri təklifə müsbət münasibət bildirərək dəstəklədilər.

Gündəlikdəki ikinci məsələ ilə bağlı Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekan əvəzi Fəxrəndə Əlimərdanova və İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədovun təqdimatı əsasında universiteti bitirən məzunlar haqqında məlumatlar şura üzvlərinə təqdim edildi.

İngilis dili və ədəbiyyatı departamentinin magistrantlarının dissertasiya mövzularının və elmi rəhbərlərinin təsdiqi ilə bağlı üçüncü məsələ şura üzvlərinin nəzərinə departament müdiri Dr. Bahman Amaninin təqdimatı əsasında çatdırıldı. Doktorant və dissertantların dissertasiya mövzusu, elmi rəhbərlərinin təsdiqi, ixtisaslarının və təhsil formasının dəyişdirilməsi ilə əlaqədar dördüncü məsələ isə müzakirəyə Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova tərəfindən təqdim edildi.

Gündəliyin “Baytarlıq epidemiologiyasının əsasları" adlı dərs vəsaitinin dərc olunması ilə bağlı beşinci məsələsənin müzakirəsi ilə əlaqədar müəllif-aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ömərov vəsaitin yazılmasında əsas məqsəd, əhatə etdiyi mövzular, vəsaitə verilən rəylər və s. haqqında məlumatı şura üzvlərinin nəzərinə çatdırdı.

Müzakirə olunan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edildi.

Cari məsələlərin müzakirəsində pandemiya və fövqəladə vəziyyət zamanı tədrisin təşkili ilə əlaqədar təkliflər irəli sürüldü və onların ümumiləşdirilərək yenidən müzakirəyə təqdim olunmasına qərar verildi.

ACADEMIC COUNCIL'S MEETING

On October 26, the first meeting of the Khazar University's Academic Council for the new academic year was held. Opening the meeting, Associate Professor Irada Khalilova, the Rector of the University, as the first issue on the agenda, suggested that Saida Sharifova, (PhD in Biology), be elected the Secretary of the Academic Council. Council members supported the proposal.

On the second issue of the agenda, Elza Samadova, the Dean of the School of Humanities, Education and Social Sciences, Fakhranda Alimardanova, Acting Dean of the School of Sciences and Engineering, and Jeyhun Mammadov, the Dean of the School of Economics and Management, presented information about the graduates.

The third issue related to the approval of dissertation topics and supervisors of masters of the Department of English Language and Literature was brought to the attention of the Council's members by Dr. Bahman Amani, the Head of the Department, who delivered the presentation. The fourth issue related to the theses of the doctoral students, approval of scientific supervisors, change of majors and form of education was presented for discussion by Saida Sharifova, the Dean of the Graduate School of Sciences, Arts and Technology.

In connection with the discussion of the fifth issue on the publication of the textbook “Fundamentals of Veterinary Epidemiology”, Doctor of Philosophy in Agrarian Sciences Asaf Omarov informed the members of the Council about the main purpose of the textbook, its topics, reviews, etc.

Relevant decisions were made on the issues discussed.

During the discussion of current issues, proposals were made regarding the organization of education during pandemics and emergencies, and it was decided to summarize them and re-submit them for further discussion.

MÜBADİLƏ PROQRAMI İLƏ KOÇ UNİVERSİTETİNDƏ

WITH EXCHANGE PROGRAM AT KOÇ UNIVERSITY

Xəzər Universitetinin Psixologiya ixtisası üzrə 3-cü kurs tələbəsi Ramiz Orucəliyev keçən yaz semestrində Koç Universitetində İkitərəfli Tələbə Mübadilə Proqramında iştirakı barədə təcrübəsini bölüşür:

COVID-19 pandemiyası dövründə mübadilə təhsilim haqqında təəssüratımın sizin üçün maraqlı olacağını düşünürəm. Türkiyənin ən yaxşı universitetlərindən birində təhsil almaq təcrübəmdən, oradakı tələbə həyatımdan və İstanbulla bağlı xatirələrimdən danışmaq istərdim.

Əslində, Koç Universitetinə müraciətim gözlənilməz oldu. Beləliklə, birinci semestrin sonunda mübadilə proqramları ilə maraqlanmaq üçün bir qrup yoldaşımla beynəlxalq ofisə getdiyim zaman belə bir imkandan xəbərdar oldum. Qlobal reytinqlərdə yüksək göstəricilərə sahib Koç Universitetinin Xəzər Universiteti ilə tərəfdaşlıq müqaviləsi olduğunu öyrəndikdə, ölkəmizdəki belə bir təhsil müəssisəsində oxumağımla doğru yol seçdiyimə əmin oldum. Əlbəttə ki, bu fürsəti əldən verə bilməzdim və vaxt itirmədən proqrama müraciət etdim. Yüksək akademik və sosial fəaliyyətim qəbul ümidimi artırdı. Müraciət etdiyim gündən sonra rəsmi qəbul olunacağım günü səbrsizliklə gözləməyə başladım. Nəhayət, qəbul ilə bağlı Koç Universitetindən elektron poçt vasitəsi ilə məktub aldım. O ərəfədə ailəmlə özümüzü necə hiss etdiyimizi sözlə ifadə edə bilmirəm. Hələ də o anı xatırlayıram. Yüksək akademik göstəricilərə sahib olan bir universitetdə bir semestr oxumaq fürsəti ... sadəcə əla bir hiss idi.

İstanbul (əhalisi on beş milyona yaxın) Mərmərə dənizini Qaradənizlə birləşdirən və Avropanı Asiyadan ayıran Bosfor sahilində yerləşən böyük bir şəhərdir. Hər il təxminən 13 milyon turistin ziyarət etdiyi, zəngin tarixi mədəniyyətə sahib, eyni zamanda möhtəşəm göydələnləri və binaları ilə müasirliyi simvolizə edən qarışıq şəhər infrastrukturunun xatirələri həyatımın ən yaddaqalan hissəsi ol-

Ramiz Orujaliyev, third-year student majoring in Psychology at Khazar University, studied at Koç University through the Bilateral Student Exchange Program last spring semester and shares his experience:

I think my exchange education adventure during the COVID-19 pandemic will be interesting for you. I would like to talk about my experience of studying at one of the best universities in Turkey, my student life there and my memories of Istanbul.

In fact, my application to Koç University was unexpected. Thus, when I went to the international office with a few groupmates to be interested in exchange programs at the end of the first semester, I became aware of such an opportunity. When I found out that Koç University, Turkey's top university with high performance in the Global Rankings, had a partnership agreement with Khazar University, I made sure I chose the right path by studying at such an educational institution in our country. Of course, I could not miss this opportunity and I applied to the program without wasting time. My high academic and social performance raised my hopes of acceptance. After the day I applied, I started looking forward to the day when I would be officially admitted. Finally, I received an e-mail from Koç University regarding my admission. I can't express in words how my family and I felt on that eve. I still remember that moment. The opportunity to study at such a university, where I dreamed of, with high academic performance for one semester ... it was just a great feeling.

Istanbul is a large city hosting the Bosphorus which connects the Black Sea with the Sea of Marmara and separates Europe from Asia (with a population of around fifteen million). The memories of the mixed urban infrastructure which is visited by about 13 million tourists every year, with a rich historical culture, but at the same time symbolizes modernity with its magnificent skyscrapers and buildings became the most memorable part of my life. I

du. Etiraf edim ki, şəhər Bakı qədər sadə deyil.

Bəzən belə inkişaf etmiş şəhərsalma sistemində azdım, amma bundan da zövq aldım. Oxuduğum bütün yerlərdə bənzər bir mədəniyyətin izlərini hiss etdim. Yerli əhali azərbaycanlı olduğumu biləndə mənə xüsusi səmimiyyətlə yanaşdılar. Bir müddət orada qaldıqdan sonra universitetin yerləşdiyi İstanbulun Avropa hissəsində insanların Qərb mədəniyyətinə sahib olma ehtimalının böyük olduğunu başa düşdüm. Bizdən fərqli olaraq gördüm ki, buradakı insanların fərdi yanaşmaları var və istəklərini üstün tuturlar. Buna uyğunlaşma kollektivçi cəmiyyətdən olan biri üçün çətin idi. Universitetin sosial tələbə həyatı çox mühümdür. Semestrin başlamasından 2 həftə əvvəl biz beynəlxalq tələbələr olaraq oriyentasiya günlərinə qoşulduq. Bu günlərdə mentorlarımız bizə universiteti tanıtdılar, tədris binalarını, universitetin möhtəşəm kitabxanasını, idman zallarını göstərdilər və boş vaxtlarımızda universitet daxilindəki fəaliyyətlər haqqında məlumat verdilər. Bu oriyentasiya günlərinə şəhər turları, şəbəkə fəaliyyətləri, mentorlarla səhər yeməyi, gəmi səyahəti və s. daxil idi.

Universitet şəhərin mərkəzindən uzaq, sakit meşəlik bir ərazidə yerləşsə də, qaldığımız yataqxanada, universitetdən 10 dəqiqəlik məsafədə tələbələr üçün hər cür imkanlar yaradıldı. Yataqxananın xaricində kiçik kafe, restoran, bar, böyük istirahət parkları, içəridə isə playstation oyun salonları, fitnes salonu, hovuz, ümumi mətbəx və oxu otaqları, kiçik kitabxana və tələbələr üçün yeməkxana var idi.

Bir sözlə, universitetdə hər şeyin olduğunu söy-

must admit that the city is not as simple as Baku.

Sometimes I used to get lost in such sophisticated urban system, but I enjoyed it because it gave me new experiences of exploring the city. I felt traces of a similar culture in all the places I visited. When the local people revealed that I was Azerbaijani, they treated me with special compassion and sincerity. After staying there for a while, I realized that people are likely to have western culture in the European part of Istanbul, where the University is located. Unlike us, I saw that people here are individualistic and prioritize their desires. This adaptation was difficult for someone from a collectivist society. The social student life of university is so important. Within 2 weeks before the start of the semester, we, as international students, were involved in orientation days. During these days, our mentors introduced us the university, showed educational buildings, the magnificent library of the university, gyms and provided information on activities we could do inside the university in our spare time. These orientation days also included city tours and fun parties (Istanbul tour (Sultanahmet area), networking activities, breakfasts with mentors, boat party etc.)

Although the University was located in a quiet, forested area away from the city center, all kinds of opportunities were created for students in the dormitory we were staying, which is 10 minutes away from the university. Outside the dormitory there were small cafes, restaurants, bars, large recreation parks and inside there were board and playstation game halls, fitness hall, pool, common kitchen and reading rooms, small library and canteen for students.

ləsəm, şişirtmə kimi düşünülməsin. Universitetdə 100-dən çox tələbə klubu var idi. Oxçuluqdan avarçəkməyə qədər klublardan birinə qoşula bilərdim. Psixologiya Klubunun üzvü idim. Universitetdə xizək sürmək için buz meydançası və Amerika futbol meydançası da var idi. Günlərimin çox hissəsini universitetin ən sevdiyim hissəsi olan Suna Kirac Kitabxanasında keçirdirdim. Kitabxana 4 mərtəbədən ibarət idi. Kitabxananın diqqətəlayiq məqamları: dərslər üçün fərdi və ümumi masalar, ortaq bir layihə hazırlamaq üçün 4-5 nəfərlik xüsusi otaqlar və müəyyən günlərdə hər kəsin əldə edə biləcəyi bir sıra rəqəmsal cihazları icarəyə götürmək imkanı. Kitabxananı bu qədər sevməyimin səbəblərindən biri də birinci mərtəbədəki yumşaq, rahat divanlar idi və tələbələr uzun fasilələrdə bu divanlarda qısa bir yuxu alma imkanı əldə edirdilər. Əvvəlcə bu qəribə görünsə də, buradakı tələbə mühiti çox rahat və müasir olduğundan bəzən qısa yuxular universitetdə mənim ən sevdiyim fəaliyyətə çevrildi. Şagirdlər burada uzun yorucu dərslərdən sonra enerjilərini bərpa edirdilər. Boş vaxtlarımda ya buz meydançasında xarici tələbələrlə vaxt keçirirdim, ya kitab oxuyurdum, ya da universitet şoularında iştirak edirdim (teatr, kino, tədbirlər və s.). İstirahət günlərimdə bir turist olaraq İstanbulu araşdırırdım və ya şəhərin digər yerlərində bir psixologiya tələbəsi olaraq pulsuz psixologiya seminarlarına qatılırdım. Xüsusilə də psixologiya tələbəsisinizsə, mübadilə təhsili müddətində bu cür seminar və təlimlərdə iştirak etməyinizi, sahəmizdəki mütəxəssislərlə əlaqə qurmağı və təcrübələrindən istifadə etməyinizi məsləhət görürəm.. Bu cür təcrübələr qazanmaq, həqiqətən, qlobal münasibətlər baxımından gələcək karyeranızda əvəzolunmaz bir fürsətdir. Təcrübələrə Koç Universitetindəki laboratoriyaların iştirakçısı kimi qatılmağınızı tövsiyə edirəm.

Türkiyədə, xüsusilə İstanbulda təhsil almaq istəyən tələbələr üçün tövsiyələrim həm də büdcə baxımından olardı. İstanbul bahalı bir şəhərdir. Təhsil alarkən universitet yataqxanasında qalmağınız, ictimai nəqliyyatda tələbə nəqliyyat kartlarından istifadə etməyiniz, İstanbulun tarixi muzeyləri və mədəniyyəti ilə tanış olmaq üçün tələbələr üçün endirimli muzey kartlarını almağınız münasib olar. Mübadilə proqramına gələndə universitetinizin şəhərdəki yerləşməsinə diqqət yetirin, çünki İstanbul həqiqətən çox böyük bir şəhərdir.

Piyada gəzintiləri sevərsinizsə, Koç Universitetinin yeri sizi məyus edə bilər. Ancaq mübadilə tələbəsi kimi təhsil əsas prioritetinizdirsə və yuxarıda sadaladığım imkanlar sizi qane edirsə, tərəddüd et-

In short, I do not think it is an exaggeration to say that the university had everything. There were more than 100 student clubs at the university. I could join one of the clubs from archery to rowing. I was a member of the Psychology Club. The university also had an ice-skating hall and an American football field. I spent most of my days at the Suna Kirac Library, my favorite part of the university. The library consisted of 4 floors. The highlights of the library are individual and common tables for lessons, special rooms for 4-5 people to prepare a joint project, 24/7 open library and opportunity to rent a number of digital devices accessible to everyone during certain days (computer, laptop etc.) One of the reasons I loved the library so much was the single soft, comfortable sofas on the ground floor and students had the chance to take a short nap on these sofas during long breaks. Although this may seem strange at first, sometimes short naps became my favorite activity at university because the student environment here is very comfortable and modern. Students regained their energy here after long tiring lessons. In my spare time, I would spend time with international students, either ice-skating, read a book, or participate in university shows (theater, cinema, events and so on). On my weekends, I would explore Istanbul as a tourist, or I would attend free psychology seminars as a psychology student in other parts of the city. Especially if you are a student of Psychology, I would recommend you look for and participate in these kinds of seminars and trainings during the exchange education, and to network with professionals in our field and use their experience. Gaining such experiences is truly an irreplaceable opportunity in your future career in terms of global relations. I would participate in the experiments as a participant in the laboratories at Koç University and if you had such an opportunity, I would recommend you participate, at least as a participant in terms of experience.

My recommendations for students who intend to study in Turkey, especially in Istanbul, would be mainly in terms of budget. Istanbul is an expensive city. While studying, I would recommend you stay in the university dormitory and use the student transport cards in public transport. To get acquainted with the historical museums and culture of Istanbul, I would recommend you get the discount museum cards for students. Pay attention to the location of your university in the city when you arrive because Istanbul is really a very big city.

If you fancy walking, the location of Koç University may disappoint you. However, if education as an exchange student is your main priority and you are satisfied with the opportunities I have listed abo-

mədən Koç Universitetini seçməyinizi və bu təcrübələri əldə etməyinizi məsləhət görürəm.

Təəssüf ki, qlobal pandemiya səbəbindən təhsilimin son iki ayında ölkəmə qayıtmalı oldum. Beləliklə, qaydalara görə 14 gün karantində qaldım. Sonra təhsilimi onlayn olaraq davam etdirdim. Mübadilə təhsilimin belə çətin günlərə təsadüf etməsinə görə məyus olsam da, heç bir xoşagəlməz hadisə oradakı xoş xatirələrimi və universitetin akademik təhsilin yeni şəraitə yüksək səviyyədə uyğunlaşması barədə düşüncələrimə təsir edə bilməz.

Ramiz Orucəliyev,

Xəzər Universitetinin Psixologiya ixtisası üzrə 3-cü kurs tələbəsi

ve, I would advise you to choose Koç University without hesitation and get these experiences as well.

Unfortunately, due to the global pandemic, I had to return to my country in the last two months of my education. Thus, according to the rules, I spent 14 days in quarantine. Then I continued my education online. Although I am disappointed that my exchange education coincided with the eve of such difficult days, no adverse event can affect my pleasant memories there and thoughts on the university's high level of adaptation of academic education to the new conditions.

Ramiz Orujaliyev,

Third-year student majoring in Psychology at Khazar University

XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ VİRTUAL MODA HƏFTƏSİNDƏ

KHAZAR UNIVERSITY TEACHER TAKES PART IN VIRTUAL FASHION WEEK

Sentyabrın 5-də 75 ölkənin tanınmış moda dizaynerlərinin iştirakı ilə Beynəlxalq Rəqəmsal Moda Həftəsi açılmışdır. Moda nümayişi koronavirus pandemiyası səbəbindən virtual olaraq keçirilmişdir.

Xəzər Universitetinin müəllimi dizayner Gülnarə Xəlilova moda kolleksiyasını Beynəlxalq Rəqəmsal Moda Həftəsində təqdim etmişdir.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

On September 5, 2020, the 5th International Digital Fashion Week opened, bringing together renowned fashion designers from 75 countries. The fashion show was held virtually due to the coronavirus pandemic.

Gulnara Khalilova, Khazar University lecturer and designer presented her fashion collection at the Fashion Week.

More information can be found at the following link:

https://www.azernews.az/culture/168746.html

İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ “DİL, ƏDƏBİYYAT VƏ DİLÇİLİK FƏLSƏFƏSİ ÜZRƏ BEYNƏLXALQ KONFRANS (ICPL 2020)” KEÇİRDİ

CONFERENCE ON THE PHILOSOPHY OF LANGUAGE, LITERATURE AND LINGUISTICS (ICPL 2020) ORGANIZED BY ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT

RUSİYA İRAN GÜRCÜSTAN BRAZİLİYA RUMINİYA ABŞ ...
RUSSIA IRAN GEORGIA BRAZIL ROMANIA USA...

Sentyabrın 12-də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə onlayn qaydada “Dil, Ədəbiyyat və Dilçilik fəlsəfəsi üzrə Beynəlxalq Konfrans (İCPL 2020)” keçirildi. 110 müəllifin və həmmüəllifin iştirak etdiyi konfransa 82 məqalə təqdim olunmuşdur. Məqalələrin bir hissəsi Azərbaycan (25 məqalə Xəzər Universitetinin, İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri və magistr tələbələri tərəfindən yazılımşıdır), digər qismi isə Rusiya, İran, Gürcüstan, Braziliya, Rumıniya, Bolqarıstan, Ukrayna, Pakistan, Amerika Birləşmiş Ştatları, İraq, Nigeriya, Oman, Yaponiya, Finlandiya, Səudiyyə Ərəbistanın kimi ölkələrin tədqiqatçıları tərəfindən göndərilmişdir.

Konfransın açılış mərasimi Xəzər Universitetinin təqdimat videosu ilə başladı, daha sonra universitetin rektoru dosent İradə Xəlilova, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amani, konfransa dəvət olunan qonaq spiker, Təbriz Universitetinin əməkdaşı Dr. Yaser Hadinin nitqləri ilə davam etdi. Açılış mərasimində, həmçinin, İngilis dili və ədəbiyyatı departamentinin Tədqiqat işləri üzrə koordinatoru Milana Abbasova məqalə və panellər haqqında məlumatları iştirakçılarla bölüdşü.

Mərasim Xəzər Universitetinin Kamera orkestrinin ifa etdiyi klassik musiqi ilə yekunlaşdı.

Konfrans 2 sessiyadan ibarət olmaqla, 16 paneldə keçirildi. Hər bir panelin iştirakçıları uğurla öz tədqiqatlarını təqdim etdilər.

AZƏRTAC tədbir barədə xəbər yaymışdır:

https://azertag.az/xeber/Xezer_Universitetinde_beynelxalq_onlayn_konfrans_kechirilib-1584301

On September 12, Khazar University's English Language and Literature Department organized the International Conference on the Philosophy of Language, Literature, and Linguistics (ICPL 2020) online. 82 articles were submitted to the conference with the participation of 110 authors and co-authors. Some of the articles at the conference were from Azerbaijan (25 articles were written by professors and graduate students from Khazar University's English Language and Literature Department), and others were submitted by the scholars from Russia, Iran, Georgia, Brazil, Romania, Bulgaria, Ukraine, Pakistan, the United States, and Iraq, Nigeria, Oman, Japan, Finland, Saudi Arabia.

The opening ceremony of the conference began with a presentation video by Khazar University, followed by the welcoming speeches of Associate Professor Irada Khalilova, Rector of the University, and Dr. Bahman Amani, Head of the English Language and Literature Department, and Dr. Yasser Hadi guest speaker invited to the conference from Tabriz University. Furthermore, during the opening ceremony, Milana Abbasova, Research Coordinator of the English Language and Literature Department, shared information about the articles and panels with the participants.

The ceremony ended with classical music performed by the Khazar University Chamber Orchestra.

The conference consisted of 2 sessions and 16 panels. Participants of each panel delivered their presentations.

UNİLAB-IN MƏLUMATLANIDIRICI SEMİNARI
INFO SESSION AT UNILAB

Sentyabrın 18-də Xəzər Universitetində UniLab layihəsi çərçivəsində universitet əməkdaşları üçün *MS Teams* vasitəsilə virtual məlumatlandırıcı seminar keçirildi. Seminarın təşkilatçısı və UniLab layihəsinin üzvü olan Ülkər Bayramova təqdimatla çıxış edərək, layihənin məqsədləri, Xəzər Universiteti və Azərbaycan ali təhsili üçün rolu və həmçinin, layihə çərçivəsində indiyə qədər görülmüş işlər haqqında geniş məlumat verdi. Bundan əlavə, məruzəçi UniLab layihəsi çərçivəsində sentyabrın 22-si və 23-də keçiriləcək virtual təlimlərin formatı və məzmunundan bəhs etdi. Qeyd etdi ki, həmin təlimlərdə Xəzər Universitetinin fakültə üzvlərinin və tələbələrinin iştirakı nəzərdə tutulur.

Layihə haqqında verilən məlumatlar iştirakçılar tərəfindən böyük maraqla qarşılandı, layihənin universitet və ölkə üçün aktuallığı vurğulandı və geniş müzakirələr aparıldı.

On September 18, a virtual info session was held at Khazar University for its staff members via *MS Teams* within the framework of the UniLab project. Ulker Bayramova, the organizer of the seminar and a member of the UniLab project, delivered a presentation on the project's goals, its role for Khazar University and higher education in Azerbaijan, as well as the work done so far under the project. Moreover, she talked about the format and content of virtual trainings, which will be held on September 22-23 as part of the UniLab project. She further noted that Khazar University faculty members and students are expected to participate in these trainings.

The information provided about the project was met with great interest by the participants, the relevance of the project for the University and the country was emphasized and extensive discussions were held.

UNİLAB LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ VİRTUAL TƏLİMLƏR
VIRTUAL TRAININGS WITHIN UNILAB PROJECT

İSPANİYA RUSİYA AVSTRİYA FRANSA
SPAIN RUSSIA AUSTRIA FRANCE

Sentyabrın 22-23-də Barselonanın Pompeu Fabra Universitetində UniLab layihəsi çərçivəsində virtual təlimlər keçirildi. ZOOM proqramı vasitəsilə keçirilən təlimlərdə Xəzər Universitetindən fakültə üzvləri və tələbələr iştirak edirdilər.

Təlimin ilk günü Pompeu Fabra Universitetinin dekanı Oriol Amatın və EUCEN-in icraçı direktoru Carme Royo-nun iştirakçıları salamlaması ilə başladı. Görüşün ilk hissəsində məruzəçilər universitetlərdəki karyera mərkəzlərinin rolundan danışdılar. Daha sonra "Grupo Planeta" və "EY Spain Talent Attraction and Acquisition" şirkətlərinin nümayəndələri işəgötürənlərin rolundan bəhs etdilər. Aparılan müzakirələrdən sonra qruplar şəklində vorkşop keçirildi və dinləyicilər gün ərzində qazanılan təcrübələrini bölüşdülər. Təlimin ilk günü Carme Royonun bağlanış nitqi ilə yekunlaşdı.

Virtual görüşün 2-ci günü UPF-BSM-in dekan müavini Ramon Bastidanın çıxışı ilə başladı. Növbəti mərhələdə söz tələbələrə verildi. Tələbələr öz təcrübələrini dinləyicilərlə bölüşdülər və verilən sualları cavablandırdılar. Nahar fasiləsindən sonra vorkşopun 2-ci günündə yenidən qruplarla iş oldu və İspaniya, Rusiya, Avstriya, Fransa və Azərbaycandan olan tərəfdaş universitetlər verilən sualları müzakirə edərək, cavablandırdılar. Növbəti mərhələdə Carme Royo layihənin görüləcək işlərindən bəhs etdi. İki günlük təlim Ramon Bastidanın çıxışı ilə yekunlaşdı.

On September 22-23, Virtual trainings were held within the framework of Unilab project at the University of Pompeu Fabra in Barcelona (UPF). Khazar University's faculty members and students participated in the trainings conducted via Zoom platform.

The first day of the training commenced with a greeting from Oriol Amat, the Dean of the UPF Barcelona School of Management (BSM), and Carme Royo, the Executive Director of EUCEN (European University Continuing Education Network). In the first part of the meeting, the speakers talked about the role of career centers in universities. Then the representatives of "Grupo Planeta" and EY Spain Talent Attraction and Acquisition spoke about the role of employers. After the discussions, a workshop was held in groups and the participants shared their experiences during the day. The first day of the training concluded with a closing speech by Carme Royo.

The second day of the virtual meeting began with a speech by Ramon Bastida, Deputy Dean of UPF BSM. Following that the floor was given to the students. Students shared their experiences with the audience and answered questions. After the lunch break, on the second day of the workshop, the groups worked again, and partner universities from Spain, Russia, Austria, France and Azerbaijan held a discussion and answered the questions. At the next stage, Carme Royo spoke about the work to be done within the project. The two-day training ended with a speech by Ramon Bastida.



ELM ADAMI VƏ EL ADAMI

Hamlet İsaxanlı (İsayev),
Xəzər Universiteti,
Bakı, Azərbaycan Respublikası

Tanınmış azərbaycanlı riyaziyyatçı professor Məmməd Bayramoğlunun 80 illik yubileyinə həsr olunmuş "Müdrik və kamil insan" adlı kitabdan (Bakı, 2020) Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının məqaləsini (səh. 37-49) oxucularımıza təqdim edirik.

İnsanın həyatında böyük və mühüm yer tutan maraqlı məşğuliyyətlərindən biri digər insanları yaxından tanımaq, onlarla tanışlıqdan məmnunluq duymaqdır. Tarixdə iz qoymuş böyük insanların əksəriyyətini görməmişik – az sayda müasirlərimiz istisna olmaqla. Uzaq və ya yaxın keçmişdə yaşamış tarixi şəxsiyyətləri, görkəmli elm və sənət adamlarını qiyabi şəkildə tanıyırıq, onların əsərlərini oxumaq, görmək və ya dinləməklə, onlar barədə yazılanları oxumaqla. Homer, Platon, Aristotel, Arximed, İbn Sina, Biruni, Nizami, Nəsirəddin Tusi, Mevlana Cəlaləddin, Füzuli, Leonardo da Vinci, Shakespeare (Şekspir), Newton, Beethoven, Üzeyir Hacıbəyli, Einstein kimi şair, filosof, elm və sənət adamlarını birimiz az, digərimiz çox, yəni, müəyyən dərəcədə tanıyırıq, məşhur əsərləri, elmə və mədəniyyətə verdikləri töhfələr onlara qarşı böyük hörmət doğurmuş, məhəbbət yaratmış və hətta pərəstişə gətirib çıxarmışdır.

Makedoniyalı İsgəndər, Çingiz xan, Teymurləng, Sultan Mehmet, Napoleon kimi böyük dövlət adamları və fateh sərkərdələri də pis tanımırıq, onların baş qəhrəman olduğu kitabları oxumuş, filmləri seyr etmişik. Onların istedadına hörmət etməmək mümkün deyil, hərçənd ki, bu hörmət bir çox insanlarda məhəbbətə və pərəstişə çevrilməyə bilir. Başqa sözlə desək, dövlət adamları və sərkərdələr bütün millətlər tərəfindən elliklə sevilir deyə bilmirik.

Böyük tarixi şəxsiyyətlərin həyatı, yaradıcılığı, əməlləri haqqında durmadan yazılmış, bu gün də yazılır, onların əsərləri, onlar barədə tarixi sənədlər, müasirlərinin yazı və xatirələri toplanılır, yeni şərhlər, yeni baxışlar meydana çıxır. Bu sətirlərin müəllifi də tarixi şəxsiyyətlərin, xüsusilə elm və sənət adamlarının bəşəriyyətin inkişafına verdikləri töhfələr haqqında düşünən, danışan və yazanlar sırasındadır.

Müasirlərimiz haqqında düşünüb yazmaq işi də həyatımızda xeyli yer tutur. Onların ən azı bir qismini şəxsən tanıyırıq, bəzilərini yaxşı tanıyırıq, az bir qismi ilə yoldaşlıq, dostluq edirik. Yubiley və anım günlərində çıxışlar, şəxs haqqında kitab nəşrinə töhfə vermək kimi hadisələr müasirlərimiz haqqında sözə, xatirələrə qol-qanad verir. Çox yaxın keçmişdə yaşamış, həyat sürdüyümüz ölkədə, xalq içində şöhrətlənmiş Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı, Səməd Vurğun, Rəşid Behbudov, Zahid Xəlilov, Fikrət Əmirov kimi şəxslər barədə aramızda yaşayıb xatirələr söyləyənlər mövcuddur; bu xatirələr böyük diqqətlə oxunurlar. Səməd Vurğun öləndə mənim səkkiz yaşım vardı. O zaman bu böyük şairi mənə tanı-

dan, oxutduran orta məktəbin son siniflərində oxuyan yaxın qohumumuz Göyüş Hacıməmmədov idi. Mən, yetişməmiş uşaq, Səməd Vurğunun ölüm xəbəri gələrkən Göyüşün hönkür-hönkür ağladığını görəndə bir qədər təəccüb etmişdim; qohumu deyildi, onu şəxsən tanımırdı, amma, şairin ölümünü böyük bir faciə kimi görür, ağlamaqdan özünü saxlaya bilmirdi. Əlbəttə, anlayanlar pərəstiş etdikləri böyük şəxslərin ölümünü faciə saymaya bilməzlər. Adı çəkilən böyüklərimizdən yalnız Zahid Xəlilovu az-çox yaxından tanıya bilmişdim, ona aid müəyyən xatirələrim olmuş, onları yazmışam.

Haqqında xatirə yazdığımız və yubileyində çıxış etdiyimiz şəxslər çox zaman bizdən yaşca böyük olanlardır və biz onların həyatı və qazandıqları uğurlar barədə danışmağı və yazmağı bir növ vəzifə borcu hesab edirik. Lakin, özümüz yaşa dolduqca, get-gedə ətrafımızdakı yaşlılardan birinə çevrilirik. Digər tərəfdən, gələcəyə boylanmağa davam etsək də, keçmişimizin böyüdüyünü görürük, nəinki yaşca bizdən böyük olanların, elə yaşıdlarımızın da get-gedə seyrəldiyini müşahidə edirik.

Gələcək üstündə kökləndik,
Ümidlə, arzuyla yükləndik,
Gərdişə heç məhəl qoymadıq.

Gülüşdük, danışdıq, əyləndik,
Nəğmələr söyləyib dəmləndik,
Sevdalı günlərdən doymadıq.

Yelqanad atlaramı mindik?
Göz yumub açmamış əyləndik
Zamanın nəbzini duymadıq.

Get gedə böyüdük, seyrəldik,
Get gedə nazildik, köyrəldik,
Ötəri sevdaya uymadıq.

(*Hamlet İsaxanlı. Bu da bir həyatdı.*
Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2006; s. 29)

Dostum, bənzərsiz bir insan haqqında düşünərkən fikir məni uzaqlara apardı. Çox şadam ki, məndən böyük müdrik dostum var – istedadlı riyaziyyatçı, elm adamı və eyni zamanda səmimiyyətdən yoğrulmuş el adamı olan Məmməd Bayramoğlu! Məmməd müəllimin istedadı onun sadəliyi və səmimiliyi ilə birləşib, ittifaqa girib; şəxsiyyət məhz istedadla insaniliyin ittifaqında bütövləşir.

Qoca tarix təsdiq eylər:
Atılan ox düzgün dəyər–
Bir ittifaq olsa əgər
Oxla kaman arasında.

(*Yenə orada; s. 31*)

Məmməd Bayramoğlu ilə 1968-ci ilin payızında tanış oldum. Moskvadan qayıdıb Azərbaycan (indi: Bakı) Dövlət Universitetində fəaliyyətə başlayan görkəmli riyaziyyatçı Mirabbas Qasımov Operatorların Spektral Nəzəriyyəsi üzrə elmi seminar aparmağa başladı. Mexanika-riyaziyyat fakültəsinin 4-cü ilini başlamış tələbə olaraq mən də bu seminarda iştirak etmək fikrinə düşdüm. Bu seminarın ən fəal üzvlərindən biri Mirabbas müəllimin *Mamed*, bizim isə *Mamed müəllim* deyə müraciət etdiyimiz gənc idi (o dövr ruscanın təsiri ilə *Məmməd*`ə *Mamed* də deyirdilər; hərçənd ki, Türkiyə`də bu adın *Memed* şəkli vardı, Yaşar Kemal`ın *İnce Memed* romanı məşhurdur). Məmməd müəllimin qəbul etdiyi tam tarixi-milli *Bayramoğlu* soyadını isə ruscanın təsiri altında qanuniləşmiş "ov", "yev" sonluqlu soyadlara qarşı bir üsyanın, həmçinin uzaqgörənliyin təzahürü saymaq mümkündür.

Məmməd müəllimlə onun bir neçə xüsusiyyətinə görə yaxın tanış olub dostlaşdıq. Birinci, dediyim kimi, aramızda spectral məsələləri ən çox bilən o idi. Riyazi və ya funksional analiz üzrə aspiranturanı (PhD proqramını) bitirmişdi, elmi marağı diferensial operatorların spectral nəzəriyyəsi idi. Bildiyini çox yaxşı bilir, izah və şərh edirdi. İkinci, Məmməd müəllim çox mehriban və açıqfikirli, sadə və istiqanlı, söhbətçil və zarafatcıl idi. Elə ilk gündən aradakı yaş və bilik sədlərini aşağı endirdi – belə demək mümkünsə. Bizi bir-birimizə yaxınlaşdıran daha bir cəhəti də danmaq olmaz, biz yerli (gürcüstanlı)

idik. Eyni adət-ənənə, eyni ləhcə özümüzdən asılı olmadan bizi doğmalaşdırır, bir-birimizə bağlayır. Əlbəttə, yerliçiliyi mütləqləşdirmək naqislikdir, yerli, amma əks təbiətə malik olub uzaq durduğumuz və əksinə, müxtəlif yerlərdən, hətta müxtəlif millətlərdən, irqlərdən olub təbiətcə yaxınlıq hiss etdiyimiz, dost olduğumuz insanlar az olmamışdır.

Tanışlığımızdan bir il keçməmişdi ki, Məmməd müəllim dissertasiyasını yazıb bitirmiş, onu müdafiəyə çıxarmağa hazırlaşırdı. Seminardan sonra mənə yaxınlaşdı, "dissertasiyamı doldurmağa kömək edərsənmi" dedi. İndiki nəsil bunu bilmir, amma eşitmiş olar: o zaman personal (fərdi) kompüter yox idi, sözlü mətni yazı makinasında yazır (yazdırır), sonra həmin mətn daxilindəki düsturları əl ilə yazırdılar, buna "dissertasiyanın doldurulması" deyilirdi. Dissertasiya işi adətən 5-6 nüsxədə hazırlanırdı. Məmməd müəllimin "Xutor" adlanan yerdəki evində işə başladıq. Məmməd müəllimin həyat yoldaşı Məhbubə xanım da çox mehriban və qayğıkeş, şair təbiətli bir xanım idi. Onların xasiyyətləri, danışıq tərzləri bir-birinə çox bənzəyirdi. Sonralar biz ailəvi dost olduq, Əhmədlidə eyni evdə yaşadıq, gedişgəlişimiz oldu, Məmməd müəllim və Məhbubə xanım çətin günlərimizdə bizə dayaq oldular.

İki dost ailə

Məmməd müəllim dissertasiyanı səliqə ilə və ikiqat sürətlə doldurmağıma çox təəccüblənir, tez-tez bunu qeyd edir, razılıqla başını bulayırdı. İşləyir, söhbət edir, zarafatlaşır, yeyib-içirdik. Biz tərəflərə xas olan aşıq musiqisi sədaları özünü göstərirdi. Az qala hamımız musiqi məclisimizin fəal üzvü idik. Mən daha çox Bülbül, Rəşid, Şövkət və Zeynəbin repertuarından məhnıları zümzümə edirdim, Məmməd müəllim "oxu, oxu" deyə məni ruhlandırırdı. Ətirli, mürəbbəli çay, möcüzəli riyazi düsturlar, gözəl mahnılar… - kefimiz göyün yeddi qatında idi. Mən özümdən asılı olmadan, mümkündür ki, oxşar ladların təsirilə bir mahnıdan o birinə keçirdim və… Zeynəb xanımın oxuduğu mahnını başladım: Məhbuuubəəəəm…Və birdən dayandım, "mən nə edirəm?". Məmməd müəllim özünə xas təbəssümlə "Yaxşı mahnıdır, davam et" desə də, mən utandım, zümzümə etməyi bir qədər dayandırdım.

Onu da deyim ki, Məhbubə xanımın şair təbiəti, aşıq müsiqisinə vurğunluğu və evdəki səmimi yaradıcı mühit öz sözünü dedi, Məhbubə xanımın, səhv etmirəmsə, beş şeir kitabı işıq üzü gördü, kitabların redaktoru isə Məmməd müəllim özü oldu! Məmməd müəllimin bənzərsiz şəxs olduğunu yuxarıda qeyd etmişdim. Bununla yanaşı onun bütün ailə üzvləri və yaxın qohumları xeyli dərəcədə Məmməd müəllimə oxşayıblar, sifət ifadələrində, danışıqda, sadəlikdə, ümumiyyətlə, xasiyyətdə və insani keyfiyyətlərdə; Məmməd müəllim onlar üçün örnək olmuşdur. Məmməd müəllimin də, Məhbubə xanımın da uşaqlıq və ilk gənclik illəri asan olmayıb…

Uşaq qəlbim böyüklərin
dərdi ilə yüklənərdi
Uşaq qəlbim tez-tez qəmli
havalara köklənərdi.

Hələ körpə uşaq ikən
ağrılara düçar oldum
Vaxtından tez böyüdüm mən
uşaq ikən yaşa doldum.

(*Hamlet İsaxanlı. Ziyarət.*
Xəzər Universitəsi Nəşriyyatı, Bakı, 2009; s. 112)

Məmməd müəllim dissertasiyasının doldurulmasında iştirakımın əvəzini artıqlaması ilə verdi, mənim Lomonosov Moskva Universitetində yazdığım namizədlik (PhD) dissertasiya işimin Bakıda müdafiəsi zamanı rəsmi opponentlərdən biri kimi dissertasiyanı oxudu, yaxşı rəy yazdı və çıxış etdi. Məmməd müəllim həyatı boyu başqalarının uğurlarına ürəkdən sevinməyi bacaran şəxsdir. Mənim müəyyən kiçik uğurlarım barədə ağız dolusu danışmasını da onun bu qabiliyyəti ilə izah edirəm.

Məmməd Bayramoğlu müdrik şəxsdir, maraqlı adamdır. Həyata münasibəti, hikmətli, bir qədər də atmacalı sözləri, gözlənilməz fikirləri ilə seçilir. Sovetlərin qatı 1970-ci illərində bir dəfə ortaya "sizcə Sovet hökuməti nə yetişdirir?" deyə bir sual atdığı yadımdadır. Təbii ki, öz cavabı vardı ki sual vermişdi. Mənim "çox şey yetişdirir, sən hansını demək istəyirsən?" qarşı sualıma cavabı belə oldu: "Sovet hökuməti həm də tülkü yetişdirir!" Məmməd müəllim cəmiyyətdə rast gəlinən mənəviyyatsızlığı, yaltaqlığı, ikiüzlülüyü, əqidəsizliyi nəzərdə tuturdu.

Doğru yolla getmək deyilsə asan
Gərək saga, sola sapmasın insan -

Əqidə nə bığdır, nə də ki saqqal
Hərdən uzadasan, hərdən qırxasan.

(*Hamlet İsaxanlı. Dördlüklər.*
Xəzər Universitəsi Nəşriyyatı, Bakı, 2007; s. 24)

Təbiəti və təbiiliyi çox sevir, bir sıra bəlaların səbəbini sünilikdə görür. Bir dəfə Moskvada səfərdə idik, səhər yuxudan duranda kefi kök idi, üzünü mənə tutub "bilirsən bu gecə nə kef çəkmişəm?" dedi və cavabını gecikdirmədi: gecə çox yaxşı yatdım, heç evimizdə belə yatmamışdım, səhər tezdən durub həyətdə gəzdim və şirin yuxumun səbəbini anladım, mehmanxana binası kərpiclə tikilib, bizim ev kimi betonla deyil.

Məmməd müəllim assosiativ düşüncəli şəxsdir, bir şey haqqında düşünərkən, nəyisə öyrənərkən onunla bağlı bir sıra şeyləri yada salır, ağla gəlməyən müqayisələrə baş vurur. Onun ingilis dilini öyrənmə metodu qeyri-adi dərəcədə maraqlıdır, ingiliscə söz və ifadələrin səslənməsini azərbaycan dilindəki heç dəxli olmayan və ya az dəxli olan söz və ifadələrlə elə bağlayır və bunu elə ifa edir ki, qarşıdakı adam həzz alıb qəhqəhə çəkir. Dillə bağlı törətdiyi (bəli, törətdiyi!) bir hadisə də çox maraqlıdır. Məmməd müəllim Elmlər Akademiyasının Dilçilik İnstituna gedir, direktorun qəbul otağına girib köməkçiyə kim olduğunu və direktorla görüşmək istədiyini bildirir. Direktor Məmməd müəllimi hörmətlə qəbul edir, çay içirlər. Direktor Məmməd müəllimin haradan gəldiyini soruşur. Məmməd müəllim təbəssümlə "Riyaziyyatçılıq İnstitutundan gəlmişəm" deyir. Qarşısındakının elmlər doktoru, professor olduğunu bilən direktor çaş-baş qalıb yavaşca "Müəllim, Riyaziyyatçılıq nədir, yəqin Riyaziyyat İnstitutu demək istəyirsiniz" deyir. Məmməd müəllimin cavabı onun gəlişinin məqsədini açır: "Bəs sizin institut niyə Dil İnstitutu deyil, Dilçilik İnstitutu adlanır, baxın, Riyaziyyat İnstitutu, Fizika İnstitutu, Kimya İnstitutu, Tarix İnstitutu, Ədəbiyyat İnstitutu deyilmirmi?! Bu Dilçilik İnstitutu ifadəsi hardan çıxdı?". Direktor tam çaşır və yalnız yavaşca "bu institutun adı mən bura direktor təyin olunandan çox əvvəl qoyulub" deyə bilir.

1977-ci ilin yayı yaxınlaşırdı. Məmməd müəllim də, mən də Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda çalışırdıq. Bir gün Məmməd müəllim "hazırlaş, Gəncəyə gedirik" dedi və izah etdi: onu və məni Gəncə Dövlət Universitetinin Riyaziyyat fakültəsi üzrə məzun olacaq tələbələrin dövlət imtahan komissiyasına sədr təyin etmişdilər. Düzü bu təyinat necə olub, kimin təşəbbüsü ilə -

bunlar yadımda deyil. Gəncə sevdiyim yerdir, ancaq imtahan komissiyasının sədri ideyası xoşuma gəlmədi. Bu işdən necə azad ola bilərəm deyə Məmməd müəllimdən məsləhət almaq istədim, o isə mənim başıma ağıl qoydu: "Nə danışırsan? Birinci səni sayıb sədr təyin ediblər, özünü dartsan bu yaxşı təsir bağışlamaz. Sonra, burda qalıb nə edəcəksən? Adam arasına çıx, bir az kömək elə, bir az da dincəl". Məni inandırdı, Gəncəyə yola düşdük. Doğrudan da, işləyir, yeni insanlarla tanış olur və dincəlirdik. Tanış olduğum maraqlı insanlardan biri ədəbiyyatçı və şair Sabir Əliyev idi, elmi söhbətlərlə yanaşı bir neçə sazlı-sözlü məclislərdə olduq.



Soldan: Məmməd Bayramoğlu, Sabir Əliyev və Hamlet İsaxanlı (*21iyun1977,Gəncə*)

Gəncə tələbələri arasında bir istedadlı oğlan varmış - Əfqan Aslanov, onu mənə təqdim etdilər, elmlə məşğul olmaq, mümkünsə mənimlə işləmək arzusunu bildirdi (sonra mənim rəhbərliyim altında çoxparametrli spectral məsələlərlə məşğul oldu, dissertasiya müdafiə etdi, daha sonralar Türkiyə`yə köçdü). Daha bir neçə qabiliyyətli tələbə mənə yanaşır, suallar verir, cəbr, analiz, diferensial tənlik kimi sahələrə maraq göstərirdilər. Onlar funksional analizin əsas ideya və məsələləri haqqında bir-iki dəfə danışmamı xahiş etdilər. İş burasındadır ki, imtahanlar bitən kimi yeməyə gedirdik, sonra axşam olur, müəyyən görüşlərə gedir və yorğun vəziyyətdə mehmanxanaya qayıdırdıq. Tələbələrin xahişini yerinə yetirmək üçün növbəti gün mən yeməyə getməməyi qərara aldım, "Məmməd müəllim, mən bir az uşaqlarla məşğul olmaq istəyirəm, siz gedin" dedim. Məmməd müəllim "sonra ac qalarsan ha" deyə xəbərdarlıq edib yoldaşları ilə getdi. Mən yazı taxtasında yazdım-pozdum, danışdım, tapşırıq verdim, söhbət xeyli uzandı. Tələbələrin razı qaldığı görünürdü. Kefim kök mehmanxanaya qayıtdım, azca sonra Məmməd müəllim də qayıtdı. Ona acdığımı söylədim. Məmməd müəllim əlini-əlinə vurub qəhqəhə çəkdi: "sənə demədimmi ac qalacaqsan, böyüyün sözünə baxmadın., indi get yemək tap görüm tapa bilirsənmi". Mən "heç olmasa bir az çörək-pendir tapaq" deyə xahiş etdim. Məmməd müəllim yenə "ac qal, sənə belə lazımdır, xalq kabab yeməyə gedir, bu da uşaqlara mühazirə oxuyur" deyə məni qınayırdı. Nəhayət, insafa gəldi, yemək təşkil etdi, aclıqdan xilas oldum. Bu hadisəni Məmməd müəllim sonralar da ləzzətlə danışıb gülürdü. Əlbəttə, burada mənə toxunmaq məsələsi

yoxdu, əksinə, yəqin ki, mənim tələbələrlə məşğul olma həvəsimi, bəyənir və bunu vurğulayırdı, amma, eyni zamanda, ac qalmağımı öncədən görə bildiyini yada salıb, əhvalata bir az da bəzək vurub özünü və bizi şənləndirirdi.

Gəncə və Məmməd Bayramoğlu ilə bağlı daha bir maraqlı əhvalatı yadımdadır. Gəncə Dövlət Universitetinin əməkdaşı Tofiq Kərimov Bakıda Riyaziyyat və Mexanika İnstitunun aspiranturasına daxil olur, Fəraməz müəllim Maqsudov isə elmi rəhbər təyin edilir. Səhv etmirəmsə, Tofiq hörmətli müəllimimiz Qoşqar Əhmədovun qohumu idi. Fəraməz müəllim Məmməd Bayramoğlunu çağırıb, "Tofiqə kömək et" deyir. Məmməd müəllim kömək etməyə başlayır; Tofiqə, diferensial operatorların spektral nəzəriyyəsinin elementlərini öyrətməyə çalışır. Tofiq həvəslənir, ərklə "Məmməd, sən canın elmi məsələmi də dəqiqləşdir" deyir. Məmməd müəllim dissertasiya mövzusunu və həll ediləcək məsələlərin qoyuluşunu dəqiqləşdirir, Fəraməz müəllimlə razılaşdırır və Tofiqə izah edir. Bundan ruhlanan Tofiq "Qağa, məsələlərin həllinə kömək et" deyir, Məmməd müəllim onun xahişini nəzərə alır, məsələlər addım-addım həll olunmağa başlayır. Tofiq növbəti xahişini edir: "Qağa, məqalələri hazırlamağa və jurnallarda nəşrinə kömək et". Beləliklə, Tofiqin dissertasiya işi hazır olur. Tofiq "Qağa, müdafiənin təşkilinə kömək et, avtoreferatı hazırlayaq, opponentlər təyin olunsun" deyə sanki son xahişini edir. Fəraməz müəllim də bir az işə qarışır. Məmməd müəllim Tofiqi müdafiə üçün məşq də elətdirir. Müdafiə başa çatır, Tofiq Məmməd müəllimin yanına gəlir, sən demə sonuncu xahişi də varmış: "Qağa, çox sağ ol, bütün işləri gördün, indi bir qonaqlıq da ver, çıxım gedim Gəncəyə".

İstedadlı riyaziyyatçı, tanınmış elm adamı və bütün varlığı ilə əsl el adamı olan dostum Məmməd Bayramoğlu haqqında bu qeydlərimi, göründüyü kimi, keçmiş zaman feilləri vasitəsilə ifadə etdim. Məmməd müəllimlə xeyli gözəl, maraqlı yoldaşlığımız olub. Sonra görüşlərimizin sayı azaldı, mənim Xəzər Universitetində başım qarışdı, Məmməd müəllim öz fəaliyyətini Riyaziyyat və Mexanika İnstitutunda uğurla davam etdirdi. Bir qədər aralı qaldığımız dövrdə o da, mən də həm müəyyən xoş anlar yaşadıq, həm həyatın acısını daddıq-duyduq.

Həya üzdə, ismət canımızdadır
Könül hərarəti qanımızdadır

Sevinc də, kədər də uzaqda deyil
Biri sağ, biri sol yanımızdadır.

(*Hamlet İsaxanlı. Dördlüklər.*
Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2007, s. 43)

Məmməd Bayramoğlu nikbin adamdır, həyatını sadə və mənalı yaşayır, ona can sağlığı və uğurlar arzulayıram!

Çalışaq daha tez-tez görüşək, əziz Məmməd müəllim!

ARTICLE BY PROFESSOR HAMLET ISAKHANLI IN THE BOOK "ELM ADAMI VE EL ADAMI"

The book entitled "Mudrik ve kamil insan" (Wise and Accomplished Man) dedicated to the 80th anniversary of the famous Azerbaijani mathematician Professor Mammad Bayramoghlu has been published (Baku, 2020). The book also includes "Man of Letters and Man of the People" memoirs about Mammad Bayramoghlu by Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees (pp. 37-49).

The authors-compilers of the book, published by "ULU" Production and Commercial Company, are Ramiz Aslanov and Tamilla Hasanova, editor is I. Nabiyev.

PROFESSOR HAMLET İSAXANLI DİSTANT TƏHSİLLƏ BAĞLI MÜNASİBƏTİNİ BİLDİRDİ

PROFESSOR HAMLET ISAKHANLI EXPRESSED HIS ATTITUDE TOWARDS DISTANCE EDUCATION

2020-ci il avqustun 15-də *Teleqraf.com* xəbər saytı “Distant təhsillə bağlı Təhsil İnstitutunun təkliflərinə reaksiyalar” adlı sörğu keçirmişdir. Sorğu koronavirusla bağlı təhsil müəssisələrinin açılıb açılmamasına münasibəti öyrənmək məqsədi daşıyıb.

Adı çəkilən sayt mövzu ilə bağlı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının da fikirlərinə yer vermişdir. Professor Hamlet İsaxanlı bildirib ki, dərslər sentyabrın 15-də bərpa olunmazsa, ən geci oktyabrın 1-dən ənənəvi qaydada keçirilməlidir.

Professor Hamlet İsaxanlının fikirləri ilə daha geniş şəkildə bu link vasitəsilə tanış olmaq olar:

On August 15, 2020, the *Telegraf.com* news website conducted a survey entitled “Reactions of the Education Institute to the proposals on Distance Education”. The purpose of the survey was to find out the attitude towards the opening/ closure of educational institutions due to the coronavirus pandemic.

The site also features the views of Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. Professor Hamlet Isakhanli indicated that if classes do not commence on September 15, they should be held traditionally from October 1 at the latest.

Professor Hamlet Isakhanli's views can be found in more detail at this link:

https://teleqraf.com/news/sosium/257965.html

XƏZƏR UNİVERSİTETİ PANDEMİYA DÖVRÜNDƏ BİR QRUP TƏLƏBƏYƏ KOMPÜTER VERİB

KHAZAR UNIVERSITY PROVIDED COMPUTERS TO GROUP OF STUDENTS DURING THE PANDEMIC

*"Universitet ehtiyacı olan bir qism tələbəyə daxili ehtiyatları hesabına kompüter verib."Bu sözləri 2020-ci il avqustun 20-də*TED.az *-a açıqlamasında Xəzər Universitetinin İnformasiya Texnologiyaları departamentinin müdiri Fərid Musayev deyib.*

O, Xəzər Universitetinin pandemiya dövründə rəqəmsal xidmətlər istiqamətində gördüyü işlər barədə danışarkən bildirib ki, Azərbaycanda ilk olaraq bu ali təhsil müəssisəsində 4 il öncə tətbiq edilən MS Office 365 platforması pandemiya dövründə tam olaraq öz potensialını göstərib: "Bütün tələbələrimizi korporativ (universitetin) e-mail ilə təmin etdik və Microsoft şirkətinin təqdim etdiyi resurslardan həm universitet, həm də tələbələr təmənnasız istifadə edirlər. Müəllim və tələbələr onlara verilən e-mail sayəsində 10 kompüter üçün MS Office 365 proqramlarında lisenziya ilə bağlı pulsuz abunə haqqı qazanıblar. Bundan əlavə, tələbələr tədris matrialları və şəxsi məlumatları üçün Onedrive-da 2 TB-lik bulud saxlancı ilə təmin olunublar".

Həmçinin bildirilib ki, tədris MS Office 365 platformasına aid Microsoft Teams proqramı üzərində aparılır: "Universitet tərəfindən ehtiyacı olan bir qism tələbələrə universitetin daxili ehtiyatları hesabına kompüterlər verilib. İnformasiya texnologiyaları departamenti tələbələrin şəxsi kompüterlərində optimizasiya və sazlanma işləri görüb. Onlayn tədris üçün hər hansı bir texniki problem yaranmayıb. Departament tələbələrlə sıx əməkdaşlıq edir və yaranmış problemlərin aradan qaldırılmasında aktiv kömək edir. Bu cür dəstək müəllim heyəti üçün də göstərilir. Cari ilin iyul-avqust aylarında universitetin informasiya texnologiyaları infrastrukturu növbəti tədris ilinin onlayn dərsləri üçün tam hazır vəziyyətə gətirilib. Departament olaraq hər tələbə və işçiyə texniki dəstək göstərməkdən məmnunuq".

Lamiyə Süleymanlı

“The university has provided computers to some low-income students at the expense of its internal resources”. This statement was made by Farid Musayev, Director of Khazar University's IT Department, in his interview to TED.az on August 20, 2020.

Speaking about Khazar University's work accomplished in the field of digital services during the pandemic, he said that the MS Office 365 platform, introduced four years ago in this Education Institution for the first time in Azerbaijan, showed its full potential during the pandemic: “We have provided all our students with corporate (university) e-mail, and the Microsoft resources are used free of charge by both the university and the students. Due to the e-mail provided to them, teachers and students receive a free subscription for licenses in MS Office 365 for 10 computers. Moreover, students got 2 TB of cloud storage on OneDrive for personal information”.

It was also noted that the training is conducted on the MS Office 365 platform's Microsoft Teams program: “The university provided computers to some low-income students at the expense of its internal resources. The Department of Information Technology has optimized and configured students' personal computers. There were no problems reported on distant learning. The department works closely with students and actively helps to solve their problems. Such support is also provided for the teaching staff. In July-August of this year, the university's information technology infrastructure was fully prepared for online classes for the subsequent academic year. We are pleased to provide technical support to students and staff”.

Lamiya Suleymanli

https://ted.az/az/view/news/22309/bu-universitet-pandemiyaya-gore-oz-ehtiyatlari-hesabina-telebelere-komputer-verib%20nbsp

PROFESSOR HAMLET İSAXANLI İCTİMAİ TV-NİN “ÖTƏN GÜNLƏR” PROQRAMINDA

PROFESSOR HAMLET ISAKHANLI IN ICTIMAI TV'S “OTEN GUNLER” PROGRAM

2020-ci il oktyabrın 3-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı İctimai Televiziyanın 2 saat müddətində davam edən “Ötən günlər” adlı proqramının görkəmli bəstəkar Vasif Adıgözəlovun 85 illiyinə həsr olunmuş buraxılışının qonağı olmuşdur.

Professor H. İsaxanlı proqramda V. Adıgözəlovun yaradıcılığı, şəxsiyyəti, görkəmli bəstəkarla dostluğu və onun Xəzər Universiteti ilə əlaqəsi haqqında danışmışdır.

Qeyd edək ki, Vasif Adıgözəlov digər görkəmli bəstəkarımız Ramiz Mustafayevlə birlikdə Xəzər Universiteti himninin musiqi müəllifidir. Himnin sözləri isə Hamlet İsaxanlıya məxsusdur.

On October 3, 2020, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was a guest on Ictimai Television's two-hour program, “Oten Gunler” (Past Days), dedicated to the 85th anniversary of prominent composer Vasif Adigozalov.

Professor H. Isakhanli spoke about V. Adigozalov's creativity, personality, friendship with a prominent composer, and his relationship with Khazar University.

It is worth mentioning that Vasif Adigozalov, along with another prominent Azerbaijani composer, Ramiz Mustafayev, is the composer of Khazar University's anthem. The words of the anthem belong to Hamlet Isakhanli.

PROFESSOR HAMLET İSAXANLI XƏZƏR TV-NİN “ATƏŞ XƏTTİ” PROQRAMINDA

PROFESSOR HAMLET ISAKHANLI ON KHAZAR TV'S “ATESH KHATTI” PROGRAM

2020-ci il oktyabrın 12-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Xəzər Televiziyasının “Atəş xətti” proqramının qonağı olmuşdur. Bir saat müddətində davam edən canlı veriliş zamanı Hamlet İsaxanlı savaş siyasəti, savaş psixologiyası barədə görüşlərini açıqlamış, savaşın doğurduğu insani faciələrdən söhbət açmışdır.

O, 1941-1945-ci illlərdə baş verən Böyük Vətən müharibəsi və hal-hazırda davam edən Azərbaycan-Ermənistan savaşı ilə bağlı canlı müzakirənin iştirakçısı olmuşdur. Bu müzakirəni aşağıdakı linkə keçid etməklə ətraflı dinləmək olar:

On October 12, 2020, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, was a guest on “Atesh Khatti” (Firing Line) program of Khazar Television. During the hour-long live program, Hamlet Isakhanli shared his views on war policy, war psychology, and talked about the human tragedies caused by the war.

He was a participant in a live discussion on the Great Patriotic War of 1941-1945 and the ongoing Azerbaijani-Armenian war. You can listen to this discussion in detail by following the link below:

https://www.youtube.com/watch?v=_kOM3W_Qf74&pbjreload=101&ab_channel=X%C9%99z%C9%99rMedia

PROFESSOR HAMLET İSAXANLI *VARYOX.AZ* SAYTINA QARABAĞ MÖVZUSUNDA MÜSAHİBƏ VERMİŞDİR

PROFESSOR HAMLET ISAKHANLI GIVES INTERVIEW ABOUT KARABAKH TO *VARYOX.AZ*

2020-ci il oktyabrın 16-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı *Varyox.az* saytına Qarabağ mövzusunda müsahibə vermişdir. Professor İsaxanlı müsahibəsində Ali Baş komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Qarabağı mənfur düşmənin işğalından azad etmək əzmindən və qətiyyətindən, müzəffər yürüşündən, bu gözəl musiqi diyarı haqqındakı arzularından və Qarabağla bağlı öz şəxsi həyat təcrübələrindən danışmışdır.

Müsahibəni aşağıdakı linklərə keçid etməklə ətraflı izləmək olar:

On October 16, 2020, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave an interview about Karabakh to *Varyox.az.* In his interview, Professor Isakhanli spoke about the determination and perseverance of the Azerbaijani army under the leadership of the Supreme Commander-in-Chief to liberate Karabakh from the occupation of the offensive enemy, the victorious march, his dreams for this beautiful land of music and his personal life experiences connected to Karabakh.

You can watch the interview in detail by following the links:

https://www.instagram.com/tv/CGaYiaijA93/?igshid=13no1bzies1j7
https://www.facebook.com/1468866576522743/posts/3345033558906026/?vh=e&extid=0&d=n

AZEDU.AZ XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏSİNİN DƏ İŞTİRAK ETDİYİ AKSİYA HAQQINDA

AZEDU.AZ ABOUT CAMPAIGN HELD BY KHAZAR UNIVERSITY STUDENT

2020-ci il oktyabrın 19-da *AzEdu.az* Xəzər Universitetinin 1-ci kurs tələbəsi Nurlana Paşayevanın da iştirakçısı olduğu **#PrayforGanja, #StopArmeniaAgression, #StopArmeniaTerrorism** aksiyası haqqında geniş yazı dərc etmişdir. Yazıda gənclərin bu həştəqlər ilə dünya trendinə daxil olaraq informasiya cəbhəsində erməni işğalçılarına qarşı fəal mübarizə apardıqlarından bəhs olunur:

On October 19, 2020, *AzEdu.az* published an extensive article on the **#PrayforGanja, #StopArmeniaAgression, #StopArmeniaTerrorism** campaign, in which Nurlana Pashayeva, a first-year student at Khazar University, also participated. The article says that young people are actively fighting against the Armenian aggressors on the information front, entering the world trend with these hashtags:

https://azedu.az/az/news/35864-prayforganja-stoparmeniaterrorism-hesteqleri-ile-dunya-trendine-daxil-olan-gencler-azeduaz-a-danisdilar-informasiya-savascilari

AZƏRTAC XƏZƏR UNİVERSİTETİNDƏ 1-Cİ KURS TƏLƏBƏLƏRİ İLƏ TANIŞLIQ GÖRÜŞÜ HAQQINDA XƏBƏR YAYIMLAYIB

AZERTAC REPORTED ABOUT MEETING WITH FIRST-YEAR STUDENTS AT KHAZAR UNIVERSITY

2020-ci il oktyabrın 19-da AZƏRTAC Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsində 1-ci kurs tələbələri ilə tanışlıq görüşünun keçirilməsi haqqında xəbər yayımlayıb:

On October 19, 2020, AZERTAC reported about the meeting with first-year students at Khazar University's School of Sciences and Engineering:

https://azertag.az/xeber/Xezer_Universitetinde_birinci_kurs_telebeleri_ile_tanisliq_gorusu-1618469

AZƏRTAC XƏZƏR UNİVERSİTETİNDƏ "ƏSGƏRƏ SOVQAT" AKSİYASI HAQQINDA

AZERTAC ABOUT "CARE PACKAGE TO SOLDIERS" CAMPAIGN AT KHAZAR UNIVERSITY

2020-ci il oktyabrın 20-də AZƏRTAC Xəzər Universitetində "Əsgərə sovqat" - orduya və yaralı əsgərlərə humanitar yardım aksiyasının davam etdiyi haqqında xəbər yayımlayıb.

Xəbərdə göstərilir ki, aksiyada bu ali təhsil müəssisəsinin məzunları, Türkiyədə təhsil almış bir qrup azərbaycanlı fəal iştirak edir və 560 əsgərə sovqat göndərilib. Aksiya çərçivəsində. tələbələr və universitetin nəzdində fəaliyyət göstərən Sumqayıt "Dünya" məktəbinin şagirdləri tərəfindən "Əsgərə məktub" adı altında məktublar da yazılıb.

Ətraflı məlumat aşağıdakı linkdə:

On October 20, 2020, AZERTAC reported on the continuation of the "Care Package to Soldiers" campaign at Khazar University - a humanitarian aid campaign for the army and wounded soldiers.

According to the report, the University alumni, a group of Azerbaijani activists educated in Turkey are taking part in the action, and care packages were sent to 560 soldiers. Within the framework of the campaign, University students and high school students of Sumgayit "Dunya" School wrote letters entitled as "Letter to Soldiers".
More information is available at the following link:

https://azertag.az/xeber/Xezer_Universitetinde_Asgere_sovqat_aksiyasi_davam_edir-1618763

YENİLİKÇİ PEDAQOQ

2015-ci ildə UNİCEF və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə təşkil olunmuş "Potensial məktəb direktorları" kursunu bitirdikdən sonra 2016-cı ildə Səbail rayonu 163 saylı tam orta məktəbə direktor təyin edilmiş Sevil Cavadova haqqında "525-ci qəzet"də dərc olunmuş məqaləni oxucularımıza təqdim edirik.

Gələcəyimiz təməli möhkəm olan uğurlu təhsildən asılıdır. Bu yolda övladlarımıza elmin sirlərini ilk olaraq məktəbdə öyrətməyə başlayan fədakar müəllimlərimizin zəhməti çox önəmlidir. "Elmin başlanğıcı idrak, idrakın başlanğıcı səbrdir" deyiblər.Xalqımız istedadlı və zəhmətsevər xalqdır. Bu istedadın təməlini məktəbdə çox səbrlə övladlarımıza aşılayan, onu üzə çıxaran isə müəllimlərimizdir. Bu mövqeyə doğru insanın seçilməsi məktəbin və təhsilin təşkilatlanması qədər əhəmiyyətlidir. Yaxşı hazırlanmış və uğurlu bir heyət olmadıqda tədris fəaliyyətində gözlənilən nəticələri əldə etmək mümkün deyil. Bu səbəbdən bir-biri ilə uzlaşan məktəb rəhbəri və müəllimlər toplusu məqsədə daha uğurla çata bilirlər. Təlim-tədris fəaliyyətinin müvəffəqiyyətli şəkildə həyata keçirilməsində məktəb rəhbərliyinin rolu böyükdür. Bu mənada təhsil ocaqlarımızda, xüsusilə məktəblərimizdə ədalətli, vətənpərvər, operativ və tələbkar məktəb direktorlarının olması çox vacibdir.

Qəhrəmanım olan Sevil Cavadova məhz müasir təhsil tələblərinə cavab verən vətənpərvər müəllimləri, ixtisasını dərindən bilib, hər zaman öz üzərində işləməyi üstün tutan pedaqoqlarımızı üzə çıxarmaqla, onlara layiqli qiymət verməyi özünə borc bilən məktəb direktorlarındandır. Cəsarət insanın ən mühüm məziyyətlərindən biridir, onun digər xüsusiyyətləri cəsarətin sayəsində inkişaf edir. Təlim-təhsil sistemində ən ağır yük məktəb rəhbərlərinin və müəllimlərinin üzərinə düşür. Elm və tərbiyə ocağı olan orta məktəblərimizdə Sevil xanım kimi güclü, dəyanətli, cəsarətli, yenilikçi məktəb rəhbərlərinə böyük ehtiyac var.

Sevil Cavadova 2002-2006-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin bakalavr, 2006-2008-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin magistr pilləsini fərqlənmə diplomu ilə bitirib. 2011-ci ildə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun əyani doktoranturasına qəbul olunub. "Ədəbiyyat dərslərində inteqrasiyadan istifadənin imkan və yolları" adlı dissertasiya işləyib. 2015-ci ildə UNİCEF və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə təşkil olunmuş

"Potensial məktəb direktorları" kursunu uğurla başa vurduqdan sonra, 2016-cı ildə Səbail rayonu 163 saylı tam orta məktəbə direktor təyin edilib. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti Yanında Bilik fondu, YAP Səbail Rayon Təşkilatı, Gender Araşdırmaları Mərkəzi, "İnkişaf" Elm Fondu, "LLL" Təhsil Cəmiyyəti, "Amerika Azərbaycan" Müəllimləri Birliyi, Fransa Kültür Mərkəzi, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Həmkarlar İttifaqı Komitəsi kimi qurumların fəal üzvü olub.

163 saylı tam orta məktəbə direktor təyin edilməndən indiyədək məktəbin inkişafı üçün əlindən gələni əsirgəmir. Fənn müəllimlərinin müxtəlif ixtisasartırma təlimlərində inkişafı, xarici dil müəllimlərinin ingilis dili üzrə sertifikatlaşdırılması üçün "British council" kursunda iştirak etmələrinə şərait yaradaraq, birbaşa özü bu işlərin təşkilində təşəbbüs göstərib. Şagirdlərin rayon üzrə müxtəlif müsabiqələrdə iştirakı məktəbdə fəallıq yaradaraq, daha da uğurlu yarışlara stimul verib. Həmçinin, ümumtəhsil məktəblərinin 9-cu və 11-ci sinfi üçün "Azərbaycan dili" metodik vəsaitlərin və ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün "Azərbaycan dili" (dövlət dili kimi) dərsliyinin müəllifidir.

Sevil Cavadovanın direktor vəzifəsində çalışdığı bu müddət ərzində onun pedaqoji işi bir çox qurumlar tərəfindən yüksək qiymətləndirilib. Səbail Rayonu İcra Hakimiyyətinin, Səbail Seçki Dairəsinin, Fəxri fərmanı və Azad Həmkarlar İttifaqı Səbail Rayon Komitəsinin fəxri fərmanlarına layiq görülüb. 2019-cu ildə keçirilən "Pedoqoji mühazirələr"də ölkə birinciliyini qazanmaqla Təhsil Nazirliyinin mükafatını alıb.

S.Cavadovanın məktəbin direktoru təyin edildiyi zamana nəzər salsaq görərik ki, 295-ci yerdə olan məktəbi qabaqcıl məktəblər siyahısına salmaq üçün əzmlə çalışaraq, sonda məktəbin 116 pillədən çox irəliləməsinə nail olub, həm də düz bir il sonra. Əslində, bu faktlar bizlər üçün böyük örnək olan fədakar pedaqoqlarımızla fəxr etməyə qürur verir.

Birincilik uğrunda daim mübarizə aparan, gələcəyimizin təhsili naminə əlindən gələni əsirgəməyən təşkilatçı, cəsarətli gənc məktəb rəhbəri olan Sevil Cavadova kimi xanımlarımızı gördükdə bir daha övladlarımızın etibarlı əllərdə olduğuna əmin oluruq.

2016-cı ildə 163 saylı tam orta məktəbə direktor təyin edildiyi zamandan amalı, məqsədi yalnız ilklərə imza ataraq istedadlı şagirdləri üzə çıxarmaqdan ibarətdir. Özünün qeyd etdiyi kimi, "hələ çox işlərimiz arzularımız var, məqsədimiz məktəbimizin bərəkətli mənəvi torpağına di-rilik suyu çiləməklə, vətənimizin ətirli mənəvi bağına çevirməkdir". Həqiqətən, də mən yuxarıda sadalanan naliyyətlərə baxdıqda görürəm ki, Sevil Cavadova bu məqsədə çatmaq üçün kifayət qədər uğurlu işlərə imza atıb. O, bir təhsil işçisi kimi üzərinə düşən öhdəlikləri artıqlaması ilə yerinə yetirərək, uğurlu fəaliyyətini yorulmadan davam etdirir.

Sevil müəllimə, gələcəyimiz üçün, təhsilimiz üçün, övladlarımız üçün etdiyiniz bütün fədakarlıqlara görə sizə təşəkkür edirik. Sizə tutduğunuz bu şərəfli və çətin yolda uğurlar arzulayırıq. Yalnız Sizin kimi vətənə, təhsilə, şagirdlərə can yandıran insanların əməyi hesabına gənclərin ləyaqəti, şərəfi, millətinə bağlılığı möhkəmlənir və inkişaf edir. Bütün əldə etdiyiniz bu nailiyyətlər əlbəttə ki, sizlərlə birlikdə daha uğurlu gələcəyə aparan yoldur.

Suma Hüseynova,

Fizika üzrə fəlsəfə doktoru, dosent

http://525.az/site/?name=xeber&news_id=149898#gsc.tab=0

22.09.20

ARTICLE ABOUT KHAZAR UNIVERSITY GRADUATE PUBLISHED IN THE PRESS

An extensive article has been published on ***525.az*** website about Sevil Javadova, a graduate of the "Potential School Principals" course, jointly organized by Khazar University and UNICEF and currently serving as the principal of Sabail District Secondary School No. 163.

The article can be read at this link:

XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU YÜKSƏK VƏZİFƏYƏ TƏYİN OLUNDU

KHAZAR UNIVERSITY'S ALUMNUS APPOINTED TO SENIOR POSITION

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin 2002-ci il məzunu Kamran Məcidov ASC "Xalq" Bankın İdarə Heyətinin sədri vəzifəsinə təyin edilmişdir. O, 2002-ci ildə Xəzər Universitetinin maliyyə və kredit ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 2005-2007-ci illərdə Xəzər Universitetinin Norvec Biznes Ali Məktəbi ilə razılaşmasına əsasən Norvec Biznes Ali Məktəbində (*Norwegian Business School, BI*) təhsil alaraq, maliyyə və iqtisadiyyat ixtisası üzrə magistr dərəcəsinə yiyələnmişdir. 2007-2010-cu illərdə Xəzər Universitetinin İqtisadiyyat və menecement fakültəsində maliyyə menecmenti fənni üzrə mühazirələr oxumuşdur. 2014-2015-ci illərdə ABŞ-ın Harvard Universitetində "Executive Education" proqramları çərçivəsində "İdarəetmə və menecment üzrə təkmilləşdirmə kursu"nu *(Program for Leadership Development*) bitirərək, həmin universitetin məzunu statusunu qazanmışdır.

K.Məcidov 2002-ci ildən əmək fəaliyyətinə bank sektorunda başlayaraq, ölkənin aparıcı banklarında müxtəlif vəzifələrdə çalışmışdır. 2008-ci ildən "Xalq" Bankda müxtəlif vəzifələrdə, o cümlədən, İdarə Heyəti sədrinin birinci müavini vəzifəsində çalışmışdır.

Ailəlidir, iki övladı var.

Kamran Majidov, Khazar University graduate from Economics and Management School was appointed Chairman of the Executive Board of "Xalq" Bank OJSC. He graduated with honors from Khazar University in 2002 with a degree in Finance and Banking. In 2005-2007, he studied at the Norwegian Business School (BI) under a contract between Khazar University and Norwegian Business School and was conferred master's degree in Financial Economics. In 2007-2010, he delivered lectures on financial management at Khazar University's School of Economics and Management. In 2014-2015, he completed the Program for Leadership Development at Harvard University in the United States as part of the Executive Education program and earned the status of a graduate of that university.

K. Majidov started his career in the banking sector in 2002 and held various positions in the country's leading banks. Since 2008, he has held various positions at Xalq Bank, including the First Deputy Chairman of the Executive Board.

Mr. Majidov is married and has two children.

https://banco.az/az/news/kamran-mecidov-xalq-bankin-idare-heyetinin-sedri-teyin-edildi

https://fed.az/az/bank/xalq-bankin-idare-heyetine-yeni-sedr-teyin-edildi-86318

https://hergun.az/article/az/28624#new_base

“TAC MAHAL” BALETİNİN LİBRETTOSU ÇAP OLUNUB

LIBRETTO OF “TAJ MAHAL” BALLET BEEN PUBLISHED



Xəzər Universitetinin Nəşriyyatında “Tac Mahal” baletinin librettosu Azərbaycan, rus və ingilis dillərində çapdan çıxıb. Üç pərdəli baletin libretto müəllifi Xəzər Universitetinin təsisçisi, yazıçı, şair, tərcüməçi və riyaziyyat, riyaziyyat fizikası, həmçinin humanitar elmlər sahəsində tədqiqatçı, professor Hamlet İsaxanlı, bəstəkarı Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının professoru, Əməkdar incəsənət xadimi Ceyhun Allahverdiyevdir.

Balet əsəri Böyük Moğol İmperiyasının məşhur hökmdarlarından biri Cahan şah və arvadı Mümtaz Mahalın həyatından bəhs edir və Cahan şahın Mümtaz Mahal üçün tikdirdiyi və sonradan dünya memarlıq sənətinin incilərindən biri kimi məşhurlaşmış Tac Mahal abidəsinin adını daşıyır.

Librettonun çap olunduğu kitabçada libretto müəllifi və bəstəkarın Azərbaycan, rus və ingilis dillərində qısa bioqrafiyaları da verilmişdir. Professor Hamlet İsaxanlının ensiklopedik, polimat alim kimi tanındığı və Ceyhun Allahverdiyevin əsərlərinin dünyanın bir sıra ölkələrində ifa olunduğu qeyd edilir.

The libretto of the “Taj Mahal” ballet has been published by Khazar University Press in Azerbaijani, Russian and English languages. The author of the libretto of the three-act ballet is Professor Hamlet Isakhanli, the Founder of Khazar University, writer, poet, translator and scholar in the field of Mathematics, Mathematical Physics, and Humanities, and the composer is Jeyhun Allahverdiyev, Professor of composition at the Baku Music Academy named after Uzeyir Hajibeyli, Honored Art Worker.

The ballet is about the life of Jahan Shah and his wife Mumtaz Mahal, one of the famous rulers of the Great Mughal Empire. The libretto bears the name of the Taj Mahal monument, built by Jahan Shah for Mumtaz Mahal and later became famous as one of the pearls of world architecture.

The booklet of the libretto also includes short biographies of the libretto's author and its composer in Azerbaijani, Russian and English. It is noted that Professor Hamlet Isakhanli is known as an encyclopedic scholar and polymath and the works of Jeyhun Allahverdiyev have been performed in a number of countries around the world.

XƏZƏR UNİVERSİTETİ İQTİSAD ELMİNİN TƏDRİSİNƏ TÖHFƏ VERDİ

BP-Azərbaycan şirkəti təhsilin inkişafına göstərdiyi dəstək çərçivəsində dünyada geniş istifadə edilən “Pearson” Nəşriyyat Evinin “Əməliyyatların idarə edilməsi: prinsipləri” (Cey Heyzer, Barri Render və Çak Manson) adlı dərs vəsaiti Azərbaycan dilinə tərcümə edilmişdir.

Dərs vəsaitini Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin müəllimi Xumar Hüseynova tərcümə etmişdir. Tərcümənin elmi redaktoru Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru, texniki elmlər doktoru, professor Məhəmməd Nuriyevdir.

Azərbaycan dilinə ilk dəfə tərcümə edilmiş bu dərs vəsaiti iqtisadiyyat və menecment ixtisasları üzrə təhsil alanların, müəllimlərin, fəaliyyətə yeni başlayan sahibkarların, menecerlərin, ümumiyyətlə geniş auditoriyanın istifadəsi üçün nəzərdə tutulur.

KHAZAR UNIVERSITY CONTRIBUTES TO ECONOMICS TEACHING

Within the framework of BP-Azerbaijan's support for education, a world-renowned textbook by “Pearson” Publishing House entitled “Principles of Operations Management” (Jay Heizer, Barry Render and Chuck Munson) has been translated into Azerbaijani.

The textbook was translated by Khumar Huseynova, faculty member at Khazar University's School of Economics and Management. The specialty editor of the translation is Professor Mahammad Nuriyev, Khazar University's Vice Rector for Academic Affairs, Doctor of Technical Sciences.

This textbook, translated into Azerbaijani for the first time, is intended for use by students majoring in economics and management, teachers, start-up entrepreneurs, managers, and the general public.

XƏZƏR UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSIN MATERİALLARI ÇAP OLUNUB

PROCEEDINGS OF INTERNATIONAL CONFERENCE HELD AT KHAZAR UNIVERSITY PUBLISHED

2017-ci il aprelin 20-si və 21-də Xəzər Universiteti və Azərbaycan Komparativ Ədəbiyyat Assosiasiyasının birgə təşkil etdikləri “Təkrarlanan mədəniyyətlərdə prototiplər və/və ya mədəniyyət genomları” adlı Beynəlxalq konfransın materialları kitab şəklində nəşr edilmişdir.

The materials of the International Conference “Prototypes in Recurring Cultures or Culture Genomes” coorganized by Khazar University and the Azerbaijan Comparative Literature Association, held on April 20-21, 2017, were published as a book.

DEPARTAMENT MÜDİRİ “AZADLIQ” RADİOSUNA MÜSAHİBƏ VERDİ

DEPARTMENT’S DIRECTOR GAVE INTERVIEW TO “AZADLIQ” RADIO

2020-ci il sentyabrın 9-da Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasov “Azadlıq” radiosuna müsahibə vermişdir. Müsahibədə Kür çayında suyun azalması, su qıtlığı, ekoloji tarazlığın pozulması və s. problemlərə toxunulmuşdur.

Müsahibəni bu link vasitəsilə izləmək olar:

On September 9, 2020, Dr. Rovshan Abbasov Director of the Department of Geography and the Environment, gave an interview to “Azadliq” Radio. In the interview, he touched upon such issues as water-level decline in the Kura River, water scarcity, ecological imbalance, etc.

The interview can be watched via this link:

https://www.youtube.com/watch?v=vr4UVeQMNKs

“ƏL-CƏZİRƏ” TELEVİZİYA KANALI XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏLƏRİNİN İŞTİRAK ETDİYİ AKSİYA HAQQINDA

AL JAZEERA TV CHANNEL REPORTS ON KHAZAR UNIVERSITY STUDENTS' CAMPAIGN

Bakı Mühəndislik Universiteti (BMU) tələbələrinin təşəbbüsü ilə yaradılmış “Qarabağ Azərbaycandır” - #KarabakhIsAzerbaijan adlı platformada Xəzər Universitetinin tələbələri də fəal iştirak edirlər.

Platformanın yaradılmasında məqsəd işğalçı ölkə Ermənistanın yaydığı yalan məlumatların qarşısını almaq, informasiya sahəsində düşmənə qarşı mübarizə aparmaq və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasını təmin etməkdir.

Tələbələr işğalçı ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərin, Qarabağ həqiqətlərinin sosial şəbəkələrdə müxtəlif dillərdə geniş auditoriyaya çatdırılmasında fəal iştirak edirlər. Platformanın üzvləri minlərlə tələbədən ibarətdir.

2020 ci il oktyabr 4-də Mərkəzi Qətər Dövlətində olan “Əl-Cəzirə” televiziya kanalının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırladığı reportajda #KarabakhIsAzerbaijan platformasının da fəaliyyəti işıqlandırılıb.

Khazar University students are also actively participating in the #KarabakhIsAzerbaijan platform, created with the initiative of Baku Engineering University (BEU) students.

The purpose of creating the platform is to prevent the spread of misinformation by the occupying country Armenia, to fight against the enemy in the field of information and to ensure that the truth about Azerbaijan is conveyed to the world community.

Students are actively involved in communicating the atrocities committed by the occupying Armenians against Azerbaijanis, the realities of Karabakh to a wide audience in different languages on social networks. The members of the platform consist of thousands of students.

A report on the Nagorno-Karabakh conflict prepared by Al Jazeera, broadcaster based in the state of Qatar, also covered the activities of the #KarabakhIsAzerbaijan platform.

https://www.youtube.com/watch?v=xmTkZ8PTIGs&feature=youtu.be

https://lent.az/news/378260

“XƏZƏR XƏBƏR”İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

KOLUMBİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞ

Sentyavrın 17-də Kolumbiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Antonio Dimate Cardenas AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun qonağı olub.

Pandemiya qaydalarına uyğun olaraq təşkil edilən görüşdə qonağı AMEA-nın birinci vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli qarşılayıb. Qarşılıqlı elmi-ədəbi əlaqələrin inkişaf perspektivlərinin müzakirə edildiyi görüşdə çıxış edən akademik İsa Həbibbəyli Ədəbiyyat İnstitutunun yaranma tarixi, keçdiyi inkişaf yolu barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan ədəbiyyatının qədim, zəngin tarixi var və rəhbərlik etdiyi müəssisədə öncəliklə ölkəmizin ədəbi irsi tədqiq edilir. Eyni zamanda, institutda dünya ədəbiyyatının dörd şöbədə öyrənildiyini söyləyib.

Akademik çıxışında Kolumbiyanın dünya şöhrətli yazıçısı Qabriel Qarsia Markesin Azərbaycan-Kolumbiya ədəbi əlaqələri üçün körpü olduğunu nəzərə çatdırıb. O, azərbaycanlı rəssam Cavad Mircavadovun tablosunun Çingiz Aytmatov vasitəsilə Qabriel Qarsia Markesə təqdim edildiyini deyib. Qeyd edib ki, Kolumbiya səfirinin Ədəbiyyat İnstitutuna qonaq gəlməsi gələcək ədəbi əlaqələrimizin inkişafına şərait yaradacaq.

Sonra çıxış edən Kolumbiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Antonio Dimate Cardenas görüşə görə akademik İsa Həbibbəyliyə təşəkkürünü bildirib. Səfir çıxışında vurğulayıb ki, Markesi tanımaq onun ölkəsini tanımaq deməkdir. A.D.Cardenas Azərbaycanda Markesin yaxşı tanınması və tədqiq olunmasının onu çox sevindirdiyini nəzərə çatdırıb. Səfirliyin dəstəyi ilə Azərbaycan ədəbiyyatı antologiyasının ispan dilində, eyni zamanda Kolumbiya ədəbiyyatı antologiyasının Azərbaycan dilində çapının qarşılıqlı ədəbi əlaqələrimizə töhfə olduğunu vurğulayıb.

“ƏLİŞİR NƏVAİNİN ƏSRİ VƏ NƏSRİ” MONOQRAFİYASI ÇAP OLUNUB



AMEA Nizami gəncəvi adına Ədəbiyyat İstitutunun “Sənətkarın elmi pasportu” seriyasından 11-ci kitabı işıq üzü görüb. İnstitutun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvi Binnətovanın “Əlişir Nəvainin əsri və nəsri” adlı kitabı çap olunub. Kitabda dahi sənətkarın elmi-filoloji və dini-təsəvvüfi əsərləri-nin məzmun şərhi, bəzən mətn tərcümələri təqdim edilib.

Kitabın elmi redaktorları AMEA-nın birinci vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli və Özbəkistanın nəvaişünas alimi, filologiya elmləri doktoru, professor Şöhrət Siracəddinondur. Monoqrafiya akademik İsa Həbibbəylinin “Azərbaycan nəvaşünaslığının yeni səhifəsi” adlı əhaləti ön sözü ilə nəşr edilib. Kitabın rəyçiləri filologiya elmləri doktorları Ataəmi Mirzəyev, Yaşar Qasımbəyli və filologiya üzrə fəlsəfə doktoru Akif Azalpdır. Məsul redaktoru isə filologiya üzrə fəksəfə doktoru, dosent Şəhla Məcidovadır.

570 səhifədən ibarət kitabın Həmçinin “Əmir Əlişir Nəvainin bu tədqiqatda bəhs edilən elmi-filoloji və dini-təsəvvüfi əsərlərinin xronologiyası” da yer almışdır. Kitabda tədqiqatın qısa mahiyyətini ifadə edən ingilis dilində geniş xülasə, ədəbiyyat siyahısı və müəllifin Əlişir Nəvai, özbək ədəbiyyatı və ədəbiyyatşünaslığı ilə bağlı yazdığı kitabları və məqalələri də təqdim edilib. Kitab “Elm və təhsil” nəşriyyatında çap olunub.

ƏDƏBİYYAT İNSTİTUTU “HORİZON 2020” PROQRAMI ÜZRƏ LAYİHƏNİN QALİBİ OLUB

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Avropa Birliyinin tədqiqat və innovasiya proqramı olan “Horizon 2020” üzrə layihənin qalibi olub. Xatırladaq ki, Horizon 2020 proqramı üzrə ölkəmizdə hazırda 12 layihə işlənilir. O cümlədən, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar, Genetik Ehtiyatlar, Kataliz və Qeyri-üzvi Kimya, Arxeologiya, Coğrafiya İnstitutlarının və Şamaxı Astrofizika Rəsədxanasının ümumilikdə altı layihəsi bu proqramın qalibi olub.

Ədəbiyyat İnstitutunun qazandığı layihə “Horizon 2020” proqramının Erasmus+ layihəsinə aiddir. Layihə Ədəbiyyat İnstitutu və Polşanın Byalıstok Universiteti ilə birgə həyata keçiriləcək.

Layihə tələbələrin və doktorantların mobilliyi, tədqiqatçı-doktorantlar, elmi rəhbərlər tərəfindən yeni təcrübələrin əldə edilməsi, elmi-metodiki rəhbərliyin təmin olunması ilə bağlıdır. Layihə çərçivəsində Byalıstok Universitetinin doktorantları və onların elmi rəhbərlərinin Azərbaycana, Ədəbiyyat İnstitutunun magistrant və doktorantlarının, eləcə də alimlərinin Polşaya ezam olunmaları, dil və ədəbiyyat sahələrinə dair mövzularda məruzələr etmələri, elmi seminarların və konfransların keçirilməsi nəzərdə tutulur.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 2021-2022-ci illərdə həyata keçirilməsi nəzərdə tutulan bu layihə Azərbaycan-Polşa elmi əlaqələrinin əhəmiyyətli bir səhifəsi olacaqdır.



PROFESSOR HAMLET İSAXANLININ MƏQALƏSİ *“THE INTERPRETATION OF NIZAMI'S CULTURAL HERITAGE IN THE CONTEMPORARY PERIOD”* KİTABINDA

2020-ci il Berlində Peter Lang GmbH nəşriyyatında Nizami Gəncəvi haqqında müxtəlif müəlliflərin məqalələrindən ibarət kitab çap olunmuşdur. Kitab “The Interpretation of Nizami's Cultural Heritage in the Contemporary Period” (“Müasir dövrdə Nizami mədəni irsinin interpretasiyası”) adlanır, redaktorları Rahilə Qeybullayeva və Christine Ruymbeke`dir. Kitab 2018-ci ildə Bakıda keçirilmiş “Nizami müasir interpretasiyada” adlı konfransın nəticəsi olaraq çap edilmişdir. Kitabın çapını Nizami Gəncəvi Beynəlxalq Mərkəzi maliyyələşdirmişdir.

Müəlliflər arasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı öz “Nizami on Alchemy” (“Nizami əlkimya haqqında”; s. 215-233) məqaləsi ilə yer alır.

PROFESSOR HAMLET ISAKHANLI'S ARTICLE IN THE BOOK ENTITLED *“THE INTERPRETATION OF NIZAMI'S CULTURAL HERITAGE IN THE CONTEMPORARY PERIOD”*

The book on Nizami compiled of articles by various authors has been published by Peter Lang GmbH in Berlin in 2020. The book is titled “The Interpretation of Nizami's Cultural Heritage in the Contemporary Period” and edited by Rahilya Geybullayeva and Christine Ruymbeke. This book is the result of the conference on Nizami in modern interpretation, Baku 2018. The publication has been funded by the Nizami Ganjavi International Center.

Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, is among the contributors with his article entitled “Nizami on Alchemy” (pp. 215-233).

XƏZƏR UNİVERSİTETİNİN DEKANININ MƏQALƏSİ *"TÜRK DÜNYASI DİL VE EDEBİYAT DERGİSİ"* JURNALINDA

Humantiar, təhsil və sosial elmlər fakültəsinin dekanı dos. Elza Səmədovanın "XX.Yüzyılın Başlarında Azerbaycan Basınına Yansıyan Türk-Alman İlişkilerinin Siyasi, İktisadi ve Kültürel Boyutu" adlı məqaləsi ERİH PLUS məlumat bazasına daxil edilən "Türk Dünyası Dil ve Edebiyat Dergisi" adlı beynəlxalq elmi jurnalda dərc olunmuşdur.

The main function of human language is its communicative function and function is "a fundamental property of language itself". (Halliday, 1985 – 17). Thus, the process of communication requires a source of transmitted signs (speaker, writer) and a receiver of those signs (hearer, reader). What if on receiving the sign, the recipient gets wrong concept as in case with linguistic humor based on ambiguity? Thus, in this case, there is a problem either with the left vertex (sign) or the top vertex (concept) of the triangle. In the first case, the source of the information fails to send the right sign, in the second case, the receiver of the sign fails to decode it correctly. The first debatable question that arises here is whether information (meaning) is transmitted in the process of communication or only signs that represent it are transmitted? In other words, do the signs carry information (meaning)? If information is transmitted, then we must accept the idea of equality of information and sign. In that case, one and the same sign would never evoke different concepts in human mind in one and the same moment of discourse, and there would never be any ambiguity. But this is not the case. Information is based on concepts but only represented by the signs that stand for the referent. Thus, only signs are transmitted, but not information. That is why each sign can mean different things to each person. The second question that arises here, is related to the top vertex (concept) of the triangle. Whom does the concept at the top vertex of the triangle belong to – the sender or the recipient? As we know, concepts do not exist independently from people's mind. They are in people's mind depending on their experience and are

evoked on receiving relevant signs that symbolize them or are encoded with appropriate signs and transmitted. But according to the triangle, as well as the above pyramid, that have one top vertex (concept), in case of ambiguity, one and the same sign that stands for the referent, can evoke different concepts in one mind simultaneously. Because two or more different interpretations cannot arise in one and the same mind simultaneously and the sender (speaker, writer) exactly knows what he means, neither the triangle nor the pyramid is able to demonstrate the process of communication. They only describe the process of correct decoding the received signs. Ambiguity arises in recipient's mind when he 'connects' the received sign to a wrong referent and thus gets a wrong concept and consequently, sometimes fails to interpret the speech correctly, i.e. exactly as the sender means. Then, the above geometrical shapes demonstrate the interpretation of the received signs not taking into consideration their origin or source. And thus, they describe the ideal, flawless decoding of received information.

As it was mentioned above, communication process requires the source and the recipient of the information. In the process of verbal communication, the actions done by the source (or the sender) of the information (speaker, writer) and by the recipient of the information (listener, reader) are quite opposite. The sender starts with the concept, then refers to the referent and from there 'goes' to the appropriate linguistic sign that stands for the referent – encodes the information choosing the relevant sign and sends the sign as in fig. 5.



Fig. 5 The sender's action in the process of communication

The recipient of the information acts in a reverse order: on getting the linguistic sign, he 'goes' from the sign to the relevant referent and from there to the concept. Thus, the completed communication act starts with the concept in the sender's mind and ends with the concept in the recipient's mind.



Fig. 6 The recipient's action in the process of communication

Taking into consideration that linguistic signs are transferred in an ideal environment, i.e. excluding any obstacle that can prevent them from being sent and received (as the fig. 5 and fig. 6 demonstrate), there are five 'participants' that are involved in the process of communication viz linguistic sign (S) which is the same both for the sender and the recipient, the sender's concept (SC), the sender's referent (SR), the recipient's referent (RR) and the recipient's concept (RC). Successful communication takes place when these two concepts, i.e. SC and RC coincide. What happens in case of ambiguity? In that case, the sign sent by the sender is linked with the different referent than the one in the sender's mind, and thus a different concept evokes in the recipient's mind. What is common for both the sender and recipient is the linguistic sign and what is different are the referents and the concepts. Then in case of ambiguity, one and the same linguistic sign (S) and two different referents, i.e. the sender's referent (SR) and the recipient's referent (RR) and two different concepts, i.e. the sender's concept (SC) and the recipient's concept (RC) are involved in the process of communication which is geometrically represented below.



Fig. 7 Communication-cognition 'butterfly' suggested by the author of this article

Testing the communication-cognition 'butterfly'

Linguistic humor based on ambiguity, is the best means to test and demonstrate how the communication-cognition 'butterfly' functions. Though some linguists claim that "we are aware that nearly everything we say has meaning on some level to ourselves as well as those we share our words with" (Bosco, 2002). Actually, it seems difficult to accept this stance that excludes ambiguity and misconception in human communication. Human communication is not flawless, and ambiguity is not a rare case. Linguistic ambiguity is defined as words, phrases or sentences that express more than one meaning. (Crystal, 2008, p.22), or a construction which admits more than one interpretation. In other words, in unintentional linguistic humor, the same linguistic sign evokes different concepts in the minds of the characters of the joke. Let us analyze some jokes:

Joke 1 Next-door neighbor, to small boy: "Come again, Johnny. We'd like **to see more of you**."

Johnny: "But there isn't **any more of me**!" (Hoke, 1965, 82 – cited by Lew,1996)

The misunderstanding of the small boy lies in the difference between the source concept and the recipient's concept. The sign 'to see more of you' chosen by the sender stands for the referent 'to see you again' and 'symbolizes the concept 'to see you again', whereas it is associated with the referent 'to see another you' and evokes the concept 'to see another you' in the recipient's mind. This happens due to lack of the appropriate referent (here: the prior linguistic experience) for the small boy and consequently, the relevant concept in his mind.



Fig. 8 Demonstration of misconception in linguistic humor (Joke 1)

In this joke, the sign 'suit' stands for the referent 'court suit' and symbolizes the concept 'court suit' in the sender's mind, but it is linked with the referent 'outer garment' by the recipient and thus evokes the wrong concept in the recipient's mind. Thus, the gap in the young girl's prior linguistic experience is the source of her misunderstanding. One can argue that the girl's answer may be intentional in order to

pretend not to understand what is asked. But as intentionality and unintentionality a different topic and remains out of scope of the present paper, we consider her irrelevant answer to be an unintentional one.



Fig. 9 Demonstration of misconception in linguistic humor (Joke 2)

Joke 3 At small village station the booking clerk says to a villager who was unused to travelling: "You'll have **to change twice** before you get to York."

Villager says: "Goodness me! And I've **only brought the clothes** I be standing upin." (Potcheptsov 1974:159, cited – by Lew 1996)



Fig. 10 Demonstration of misconception in linguistic humor (Joke 3)

In this joke, the sign “to change” stands for the referent 'transfer' and symbolizes the concept “transfer” in the sender's mind, but it stands for the referent 'change clothes' and evokes the concept “change clothes” in the recipient's mind.Thus, the analysis of the above jokes demonstrates that communication-cognition 'butterfly' can fully describe the process of communication the success of which depends on the extent of congruity between SC and RC. Moreover, it demonstrates that the number of concepts in human mind depends on peoples' language competence or language experience.

Conclusions and further study

Although the semantic triangle demonstrates the relationship between sign, referent and concept, and describes how the received or existing signs are decoded, it fails to demonstrate the process of human verbal communication which requires two parties – the sender and the recipient of linguistic signs. In order to demonstrate the communication-cognition process in case of linguistic ambiguity, not one but two triangles are needed, viz the sender's triangle where linguistic signs are encoded and sent and the recipient's triangle where the received linguistic signs are decoded. The communication-cognition 'butterfly' suggested in this paper where alongside with arbitrary linguistic signs, both the source (sender's) referent and concept and the recipient's referent and concept are represented, can serve this purpose.

The completed communication act starts with the concept in the sender's mind and ends with the concept in the recipient's mind. It means, that human communication takes place between two minds indirectly, i.e. through arbitrary linguistic signs that evoke concept or meaning in people's minds. Then, meaning is something subjective rather than objective and cannot exist beyond people's minds. Successful communication is transmission of concepts between the source and the receiver. Had we been able to communicate telepathically, we would not have had the need of arbitrary linguistic signs and there would never had been any ambiguity in human communication. Linguistic signs are not ambiguous per se, as they do not carry meaning; meaning or concept is evoked in people's minds upon receiving linguistic signs and depends on their 'knowing' of the world and linguistic experience. This subjective way of interpretation induces the difference between the source concept and the recipient's concept and this very difference induces ambiguity in human language.

Not claiming for the last word in this question, we consider that further investigation in this direction can shed light on the problem under consideration and be useful in modelling human communication.

References

Bosco, A. (2002). What do you Mean: A Brief Look at Ogden and Richards' Theory of Meaning.

Crystal, D., (2008). A Dictionary of Linguistics and Phonetics. 6th Edition. Oxford: Blackwell Publishing

Finegan E. (2008). Language: It's Structure and Use. Fifth Edition. Thomson Higher Education, Boston, USA

Halliday, M.A.K. 1985. Language, context and text: Aspects of language as social semiotic. Geelong: Deakin University Press. Chapter 2. p. 17

Halliday, 1985. "Systemic Background". In *Systemic Perspectives on Discourse, Vol. 1: Selected Theoretical Papers* from the *Ninth International Systemic Workshop*, Benson and Greaves (eds). Vol. 3 in *The Collected Works*, p. 193.

Kudashev Igor, Irina Kudasheva. (2010). Semiotic Triangle Revisited for the Purposes of Ontology-based Terminology Management.

Lew R., (1996). An Ambiguity-based Theory of the Linguistic Verbal Jokes in English. *Doctor's Thesis, Adam Mickiewicz University.*

Martin Haspelmath. The geometry of grammatical meaning: Semantic maps and cross-linguistic comparison. *The new psychology of language, vol. II, Mahwah, NJ, May 2000)* Ogden, C.K. and Richards, I.A. (1923). The Meaning of Meaning. A study of the influence of language upon thought and of the science of symbolism. London: Routledge and Kegan Paul.

Sue Ellen Wright. Standards for the Language Industry. Terminology, Computing and Translation (Google Books)

http://dx.doi.org/10.30845.ijll.v7n2p14

ARTICLE CO-AUTHORED BY MEMBER OF COMPUTER SCIENCE DEPARTMENT PUBLISHED IN JOURNAL *IEEE ACCESS*

An artcle entitled " A New Strong Adversary Model for RFID Authentication Protocols ", co-authored by by Dr. Amir Rahmani, Professor of Computer Science at Khazar University was published in IEEE Access, an ISI-index journal from IEEE Publisher.

Radio Frequency Identification (RFID) systems represent a key technology for the Internet of Things (IoT). In RFID technology, authentication protocols are often necessary to confirm the identity of the parties involved (i.e. RFID readers, RFID tags and database servers). Firstly, we show two approaches that an adversary may use to mislead an honest reader into thinking that it is communicating with a legitimate database. Secondly, we show how an adversary that has compromised some tags can impersonate an RFID reader to a legitimate database. Finally, we propose a new authentication protocol that offers an adequate security level and is resistant to the mentioned security risks. The security proofs of the proposed protocol are supported with Gong-Needham-Yahalom (GNY) logic and Scyther tool, which are formal methods to evaluate the security of a cryptographic protocol.

The article can be found at this link:

https://ieeexplore.ieee.org/document/9134736/authors

KOMPÜTER ELMLƏRİ DEPARTAMENTİNİN ƏMƏKDAŞININ HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ *IEEE ACCESS* JURNALINDA

Xəzər Universitetinin Kompüter Elmləri üzrə professoru Dr. Amir Rahmaninin ortaq müəllifi olduğu "A New Strong Adversary Model for RFID Authentication Protocols " başlıqlı məqaləsi IEEE nəşriyyat evinin ISI indeksli dərgisi olan IEEE Access jurnalında dərc olunub.

Bu linkə daxil olmaqla məqalə ilə tanış ola bilərsiniz:

https://ieeexplore.ieee.org/document/9134736/authors

ARTICLE CO-AUTHORED BY MEMBER OF COMPUTER SCIENCE DEPARTMENT PUBLISHED IN JOURNAL *CLUSTER COMPUTING*

An article entitled "Event-driven IoT architecture for data analysis of reliable healthcare application using complex event processing", authored by Dr. Amir Rahmani, Professor of Computer Science at Khazar University was published in *Cluster computing*, an ISI-indexed journal from Springer collection.

Internet of Things (IoT) is enhancing the intelligence of the societies through a rapid transition to a smarter, automatic, responsive world due to the dramatic increase in the number of sensors deployed around the world. Complex Event Processing (CEP) is a data stream tracking method used to extract the meaningful data obtained from the network results in real-time decision making. In this paper, an event-driven IoT architecture is presented for data analysis of reliable healthcare applications, including context, event, and service layers. Dependability parameters are considered in each layer, and the CEP method as a novel solution and automated intelligence is applied in the event layer. Implementation results showed that the CEP method increased reliability, reduced costs, and improved healthcare quality.

The article can be found at this link:

https://link.springer.com/article/10.1007/s10586-020-03189-w

KOMPÜTER ELMLƏRİ DEPARTAMENTİNİN ƏMƏKDAŞININ MƏQALƏSI *CLUSTER COMPUTING* JURNALINDA

Xəzər Universitetinin Kompüter Elmləri üzrə professoru Dr. Amir Rahmani tərəfindən yazılmış "Event-driven IoT architecture for data analysis of reliable healthcare application using complex event processing" adlı məqalə Springer külliyyatından olan ISI indeksli *Cluster computing* jurnalında dərc olunub.

Bu linkə daxil olmaqla məqalə ilə tanış ola bilərsiniz:

https://link.springer.com/article/10.1007/s10586-020-03189-w

HƏDİYYƏ

(*Hekayə*)

İsaxan İsaxanlı

Qarabağ müharibəsində əsir düşmüş Azərbaycan qızlarının xatirəsinə

Gülnaz atasının qucağına atıldı:

– Ata, mənim adımı sən qoymusan, yoxsa anam?

– Əlbəttə ki, mən. Bax sənin doğum haqqında şəhadətnamən də məndədir, görürsən? Sənin adını anan qoymuş olsaydı, doğum haqqında şəhadətnamən də onda olardı – deyə dodaqaltı qımışdı və Gülnazın oxuduğu məktəbə vermək üçün səhər evdən götürdüyü sənədi qızına uzatdı.

Gülnaz sanki, doğrudan da, onun adının atası tərəfindən qoyulduğunu sübut edən bir sənəd kimi, doğum şəhadətnaməsini möhkəm-möhkəm öpdü və: Ata, olar, bu məndə qalsın? – deyib heç cavab gözləmədən ətəyinin cibinə qoydu.

***

Artıq hava qaralırdı. Göyün üzünə qara buludlar yığışmış, uzaqda görünən başıqarlı Qızqala dağı tərəfdən soyuq rüzgar qalxmaqda idi. Rasim yorğun olsa da, sürətlə addımlamağa çalışır, Gülnaz isə heç nəyə məhəl qoymayaraq, doyunca yatıb yenicə qalxmış uşaq kimi atılıb-düşür, atasının ətrafında dövrə vururdu. Rasim Gülnaza baxaraq, qızına bu sevincli anları yaşatdığına görə özündən razı halda gülümsəyirdi. Havanın soyuduğunu görən Rasim: Qızım, hava yaman soyudu, deyəsən, yağış da yağacaq, bir az cəld ol, özümüzü kəndə yetirək, – deyə Gülnazın əlindən tutdu. Onlar sürətlə kəndə doğru irəliləməyə başladılar. Kəndin girəcəyindəki ağaclığa çathaçatda xeyli sayda adamın böyük təlaş içində ora-bura qaçdığını gördülər. Onlardan biri: Ermənilər kəndə giriblər, qabaqlarına çıxanı güllələyirlər, getməyin, – deyə qışqıraraq gözdən itdi. Bircə anda dünya Rasimin başına fırlandı. Kənd camaatı arasında ermənilərlə bağlı söz-söhbətlər xeyli vaxtdır gəzsə də, bunun, doğrudan da, nə vaxtsa baş verə biləcəyi heç kimin ağlına belə gəlmirdi. Vəziyyəti belə görən Rasim bir kəndə tərəf baxdı, bir də dönüb səkkizyaşlı qızı Gülnaza: – Mənim gözəl qızım, bax burdaca bu ağacın altında otur, heç bir yerə tərpənmə, mən bu saat qayıdıram, dedi və özündən asılı olmayaraq, qızından ömürlük ayrılırmış kimi, onu möhkəm-möhkəm bağrına basdı.

Təxminən bir saat idi ki, Rasim getmişdi. Atasının yolunu gözləyən qızcığaz soyuqdanmı, yoxsa qorxusundanmı oturduğu ağacın altındaca yuxuya getmişdi. Birdən hündürdən danışıq səsləri gəldi. Gülnaz yuxudan ayıldı. Gözlərini açanda əllərində avtomat olan üç nəfər əsgərin düz ona tərəf gəldiyini gördü. O bilmədi ki, neyləsin – əsgərlərə yaxınlaşıb atasını soruşsun, yoxsa gizlənsin. Bu zaman əsgərlərdən biri, Gülnazın başa düşmədiyi dildə, yoldaşına nəsə dedi və onlar bir-biri ilə şit-şit zarafatlaşaraq gülməyə başladılar. Gülnaz bu adamların azərbaycanlı olmadığını başa düşdü və qorxusundan yanındakı ağacın arxasında gizləndi ki, əsgərlər onu görməsinlər. Bu vaxt ağacın arxasından gələn xışıltı səsi avtomatlılardan birinin diqqətini çəkdi. Ağaca yaxınlaşan avtomatlı Gülnazı görüb sevincək halda: Bunu bizə Allah yetirdi ki, – deyərək yoldaşlarına tərəf döndü və heç reaksiya gözləmədən kəmərini açmağa başladı. Onun fikrini anlayan o biri avtomatlı hirsli-hirsli dilləndi: Xorenin əmrini nə tez unutdun? Bilmirsən ki, əlimizə keçən türk qızlarını o şəxsən cəzalandırmaq istəyir? Bunu deyib avtomatlılar Gülnazın qolundan sürüyə-sürüyə ordan uzaqlaşdılar. Gülnaz isə göz yaşları içində "ata, ata" deyə fəryad edirdi...

Kənddəki dostlarından vəziyyət haqqında ətraflı məlumat alan Rasim ağaclığa tərəf üz tutdu və birbaşa qızını qoyduğu ağacın yanına cumdu. Gülnazın burada olmadığını görən Rasimin sanki ürəyi dayandı. O, o yan - bu yana qaçaraq "Gülnaz, Gülnaz" deyə qışqırır, amma yalnız öz səsinin əks-sədasını eşidirdi.

***

Bu gün Gülnazın ad günü idi – 26 yaşı tamam olurdu. Rasim, ömür yoldaşı Ülkər və oğlu Rəşad süfrə başına toplaşmışdılar. Heç kim dillənib bir söz deyə bilmirdi. Bu ayrılıqdan ən çox əziyyət çəkən Rasim idi. O, Gülnazın əsir düşməsində yalnız özünü günahkar sayırdı. Axı o gün, ermənilərin kəndə girdiyi xəbərini alanda Gülnazı ağaclıqda təkbaşına buraxmasaydı, bütün ailəsi 18 illik ayrılıq dərdinə düçar olmazdı. Ömür yoldaşı və uşaqları daima Rasimi sakitləşdirməyə çalışırdılar: Sənin heç bir günahın yoxdur, görünür, bu, Allahın işidir, yazı-qədərdir, – deyə ona ürək-dirək versələr də, bunların heç biri Rasimi sakitləşdirmək gücündə deyildi. Hər yanvar ayının 22-si Rasim üçün onun həyatının ən ağır günü idi.

Rasim sakitcə otağın küncündəki pianoya yaxınlaşdı, Gülnazın pianonun üstündən, sanki "ata, gəl məni xilas et" deyən yalvarış dolu baxışlarla boylanan şəklini əlinə aldı, ehmalca dodaqlarına yaxınlaşdırdı. Titrək səslə "Mənim əziz balam, hardasan?" – deyərək, illərdir olduğu kimi, yenə də göz yaşlarını saxlaya bilmədi.

***

Gülnaz işığı söndürdü: Bu gün çox yorulmuşam, – deyərək üzünü yana çevirdi. Lakin Arsen bu gecədən beləcə asanlıqla vaz keçmək niyyətində deyildi: – Əzizim, sənə bir hədiyyəm var, üzünü mənə çevir. Gülnaz istəksiz halda, bir az da deyinə-deyinə ərinə tərəf döndü. Ərinin əlindəki kağız parçalarını görüb geri çevrilmək istəsə də, Arsenin kobud əlləri ona mane oldu: – Əzizim, bu, bizim evlənməyimizin 10 illiyi münasibətilə hazırladığım hədiyyəmdir, sən bu hədiyyəni çox sevəcəksən. Bunu deyib Arsen əlindəki Yerevan – Moskva təyyarə biletini və tünd-mavi pasportu Gülnaza uzatdı. Gülnaz bu pasportu həyatında ikinci dəfə idi ki, görürdü – ilk dəfə imza atıb rayon pasport şöbəsindən götürəndə və bir də indi. Odur ki, saxta bir maraqla pasportu nəzərdən keçirdikdən sonra Arsenin ona verdiyi bileti böyük sevgi ilə əvvəlcə sinəsinə basdı, sonra da dodaqlarına yaxınlaşdırıb öpdü. Onun bu hərəkəti Arsenə

sanki dünyaları bağışladı və bu illər ərzində nadir hallarda arvadının gülər üzünü görən Arsen özündən razı halda Gülnazı möhkəm-möhkəm qucaqlayıb özünə sarı dartdı. Gülnaz nə qədər çalışsa da, ərinin kobud əllərindən qurtula bilmədi, illərlə olduğu kimi, yenə də ona tabe olmaq məcburiyyətində qaldı.

Gecəboyu Arsenin ona söylədiyi sözlərdən Gülnaz yalnız birini eşitdi – MOSKVA!

Gülnaz səhər lap tez oyandı. Əslində, o, sevincindən gecəni, demək olar ki, yatmamışdı, əri ilə gecəboyu uzun-uzadı söhbət etməyə xüsusi marağı olmadığından özünü yatmışlığa vurmuşdu. Arsen yuxudan duranda artıq mətbəxdə səliqə ilə açılmış süfrə – onun çox sevdiyi "Mikoyan" sosisi, soyutma yumurta, qızdırılmış qara çörək və qarışdırılmış şor-xama onu gözləyirdi. Arsen süfrəyə diqqətlə nəzər saldıqdan sonra arvadına tərəf döndü, heç bir şey deməsə də, onun ürəyindən keçənləri təbəssümündən oxumaq olurdu. Arsen ürəyində Gülnazın illərdir arzusunda olduğu və ondan dəfələrlə xahiş etdiyi Moskvaya getmək arzusunu bu qədər gec yerinə yetirdiyi üçün özünü qınayırdı. O, böyük iştahla yeməyini bitirdi və Gülnazı qucaqlayıb: Sabah səhər saat 9-da hava limanında olmalıyıq, hazırlaş, mən də işlərimi bitirib qayıdacam, – deyərək evdən çıxdı. Arsen gedəndən sonra Gülnaz mətbəxi yığışdırdı, yataq otağına keçib bir az dincəlmək istədi. Güzgünün qabağından keçərkən başını çevirib güzgüyə baxdı və ayaq saxladı. Gənc olmasına baxmayaraq, gözlərinin ətrafında yaranmış qırışlar diqqətini cəlb etdi. Gülnaz sanki bu qırışları ilk dəfə idi görürdü. İndiyə qədər özünə heç vaxt ayırmayan, xarici görünüşündən heç vaxt ciddi narahat olmayan Gülnaz bir saata qədər güzgünün qabağından ayrılmadı və hələ uşaqlığından çox sevdiyi "Qaragilə" mahnısını (Gülnaz bu mahnını atasından eşitmişdi) alçaqdan zümzümə edə-edə özünə xeyli bəzək-düzək verdi.

Axşam Arsen evə dönəndə yenə də onun sevdiyi yeməklərlə dolu süfrə diqqətini cəlb etdi. Gülnaz da həmişə olduğundan fərqli görünürdü. Onun üzündə xüsusi bir təbəssüm vardı. Gördüklərindən böyük həzz alan Arsen Gülnaza yaxınlaşaraq bu dəfə ürəyində yox, hündürdən, özü də xüsusi şövqlə dedi: – Mən sənin bu qədər gözəl olduğunu heç görməmişdim. Günah, yəqin ki, mənim bu kor olan gözlərimdədir. Ancaq sənin də günahın az deyil, bu gözəlliyi məndən gizlətmisən. Sənə söz verirəm ki, bundan sonra səni tez-tez gəzməyə aparacam. Bu sözlərdən bir az xoşhallanan, bir az da utanan kimi olan Gülnaz: Yaxşı, yaxşı, nə olub ki, mən elə həmişəki adamam", – deyərək yataq otağına keçdi.

Gülnaz getdikdən sonra Arsen bir müddət mətbəxdə oturub fikrə getdi. O, Gülnazın belə gülər üzünü çox az-az görürdü. Əvvəllər bunun səbəbini Gülnazın həyata etinasızlığı ilə bağlayır və onu dəyişdirmək üçün, nədənsə, heç bir xüsusi cəhd də etmirdi. İndi, bir gecənin içində arvadının belə dəyişdiyini gördükdən sonra bütün günahların özündə olduğunu qəbul etdi, indiyə qədər arvadını çox qapalı saxlamasının, sərbəstlik verməməsinin, tanışlardan, qohum-əqrəbadan təcrid etməsinin yanlış fikir olduğunu düşünməyə başladı və arvadına qarşı münasibətini dəyişdirmək üçün hər şey edəcəyinə ürəyində söz verdi.

Gülnaz sabahkı səfər üçün hazırlıq görməyə başladı. Özünün və Arsenin lazım olan palpaltarını səliqəli şəkildə çantaya qoydu, pasportunu əlinə aldı, açıb içindəki şəklinə baxdı. Pasportu özünün də başa düşmədiyi qarışıq hisslərlə nəzərdən keçirib onu da çantasına qoydu. Gülnaz özünün şəxsi əşyalarını da götürdükdən sonra paltar şkafına yaxınlaşdı, şkafın aşağı sağ küncündəki siyirməsini açdı, oradakı bəzi qarma-qarışıq əşyaların arasından nə isə

götürdü. Özündən başqa otaqda kimsənin olmamasına baxmayaraq, Gülnaz qorxa-qorxa, çox ehtiyatla, elə bil kimsədən gizləyirmiş kimi, götürdüyü o şeyi köksünə sıxaraq öpdü və şəxsi əşyaları olan kiçik əl çantasına qoydu. Gülnaz bütün hazırlıq işlərini bitirib uşaq otağına keçdi və qızının çarpayısına yaxınlaşdı, oyanmasın deyə ehmalca beş yaşlı Nərgizə tərəf əyildi (əslində, qızının adı Narine idi, Gülnaz isə həmişə ürəyində ona Nərgiz deyə müraciət edirdi). Nərgiz şirin-şirin yatmışdı. Yenicə yemək yediyi hiss edilirdi, dodaqlarının kənarından axan südün izi hələ silinməmişdi. Nərgizin mələk üzündə xüsusi bir təbəssüm vardı, o sanki yuxusunda kimə isə qımışırdı. Gülnaz çox qarışıq fikirlər içində idi. Qəlbinin dedikləri və real analıq duyğuları arasında çaşbaş qalmışdı. Elə bu an qapı açıldı, Arsen içəri girdi. Gülnaz Arsen görməsin deyə göz yaşlarını silib geriyə dönsə də, Arsen onun ağladığını hiss etdi: Niyə ağlayırsan, niyə belə kədərlisən? Biz ki cəmi bir neçə günlüyə gedirik. Bir də ki anam qızımıza bizdən də yaxşı baxacaq, sən bu qədər narahat olma, hər şey yaxşı olacaq, – deyə Gülnazı sakitləşdirməyə çalışdı. Gülnaz: Eh, Arsen bircə bilsəydin, bir ana üçün bir gün belə öz körpəsindən ayrı qalmaq nə deməkdir, – deyib yenə də göz yaşlarına hakim ola bilmədi. O bir də yatağa tərəf əyildi, Nərgizin, bir də görməyəcək kimi, dönə-dönə yanaqlarından öpdü və ürəyində: Mənim əziz balam, bilmirəm, məni bağışlaya biləcəksənmi? – deyərək dərindən ah çəkdi.

***

Hava limanında diktorun səsi eşidildi: Yerevandan Mockvaya uçan KL-3193 saylı reysə 4-cü qapıdan minik başlayır. Gülnazın sevincdən, az qala, ürəyi dayanacaqdı. İlahi, bu yuxudurmu, yoxsa həqiqətdirmi, o doğrudanmı Moskvaya gedir?! Nə qədər ki təyyarə havaya qalxmamışdı, Gülnaz buna inana bilmirdi. Birdən həyəcandan gözləri qaraldı, başı fırlandı. O, nə qədər özünü ələ almaq istəsə də, bacarmadı, ayaqları büdrədi, az qaldı ki, yıxılsın. Gülnaz birtəhər özünü saxlasa da, Arsen hər şeyi hiss etdi. O, tələş içində: Nə olub, sənə nə oldu? – deyə soruşdu və cavab gözləmədən hava limanının tibbi yardım məntəqəsinə sarı qaçdı. Çox keçmədi ki, həkim gəldi, Gülnazın təzyiqini yoxladıqdan sonra üzünü Arsenə tərəf çevirdi: Təzyiqi çox yüksəkdir, bu vəziyyətdə uçmaq məsləhət deyil. Bu sözlər Gülnazı ildırım kimi vurdu. Qara gözlərini ərinə zilləyib durdu, gözlərindən iki damla yaş süzüldü. İlahi, doğrudanmı onun illərlə ürəyində bəslədiyi arzusu heçə dönəcəkdi?! Arsenin: Əzizim, hər şey keçib gedər, başqa bir vaxt səni mütləq Moskvaya aparacam, mənə inan, indi isə həkimin sözlərinə əməl edək, evimizə dönək, – sözləri onun üçün bir ölüm fərmanı idi. Elə bil dünya Gülnazın başına fırlandı, özünü ələ almağa çalışdı: Yox, yox, sən nə danışırsan, mən lap yaxşıyam, – deyə cəld, heç nə olmamış kimi, ayağa qalxdı: Arsen, onillik həyatımızda səndən heç vaxt bir şey istəməmişəm. İndi yalvarıram sənə, bu səfərimizi təxirə salma, gedək Moskvaya. Məndən narahat olma, mən özümü yaxşı hiss edirəm, bir az həyəcanlandım, artıq hər şey keçdi. Moskvada, narın-narın yağan quşbaşı qar altında sənin lə əl-ələ gəzmək, sənin sevgi dolu sözlərini eşitmək, Qızıl meydanda şəkil çəkdirmək mənim ən böyük arzumdur.

Arvadının yalvarış dolu baxışlarına dözməyib, nəvazişli sözlərindən bir qədər qürurlanan Arsen başı ilə razılığını bildirdi. Gülnaz: Sənin bu yaxşılığını heç vaxt unutmayacam, – deyərək yanaqları qızarmış halda başını Arsenin sinəsinə əydi.

Təyyarəyə minik başladı. Gülnaz ərinin qoluna girib gözlərini biletləri yoxlayan qıza zillə-

mişdi, nə qədər ki təyyarəyə minməmişdi, heç cür rahatlaşa bilmirdi. Qız biletləri cıraraq minik hissəsini tez-tez sərnişinlərə qaytarır, bu yolla sanki bir qədər gecikmiş reysə miniyi sürətləndirmək istəyirdi. Nəhayət, növbə Gülnaza çatdı, bilet yoxlayan qız, nədənsə, biletə diqqətlə nəzər saldıqdan sonra Gülnazın üzünə baxdı. Bu baxışlar o qədər diqqətli idi ki, Gülnaz sanki sənədlərində bir problemin olduğunu bilirmiş kimi, doğrudan da narahat olmağa başladı. Elə bu zaman qızın "buyurun, keçin" sözləri Gülnazı elə bil ki yuxudan oyatdı. Onlar cəld addımlarla təyyarəyə tərəf getdilər.

***

Gülnazgil Moskvada Arsenin əmisi oğlu Arturun evində qalırdılar. Artur onları ən əziz qonaqları kimi qarşılamışdı. Arturun arvadı Anuş, adının mənasına uyğun olaraq, çox şirindil və açıqqəlbli bir qadın idi. O, Gülnazı ilk dəfə Yerevanda, onların toylarında görmüş və bir neçə gün sonra ailəsi ilə Moskvaya köçdüklərindən bir daha görüşməmişdilər. Gülnazın həyat hekayətini isə sonradan əri Arturdan eşitmişdi və onu öz doğması kimi sevmişdi. Yaşca Gülnazdan xeyli böyük olsa da, rəftarında bunu qətiyyən sezdirmir, Gülnazın onu özünün yaxın rəfiqəsi kimi qəbul etməsi üçün hər şeyi etməyə çalışırdı. Gülnaz da bunu hiss edir və onun son günlərdəki xoş əhvali-ruhiyyəsi burada – Moskvada da davam edirdi. Onlar artıq üç gün idi ki, Moskvadaydılar. Planlarına görə, daha iki həftə burada qalacaqdılar. Ona görə də, ilk günlərdə heç bir yerə getmir, vaxtlarını evdə birlikdə keçirirdilər.

Bu gün ilk dəfə idi ki, Gülnaz Anuşla birlikdə şəhərə gəzməyə çıxmışdı. Yanvarın son günləri olmasına baxmayaraq, Moskvada hava heç vaxt olmadığı qədər xoş idi. Narın-narın yağan qar sakit, küləksiz havaya ayrı bir gözəllik verirdi. Lakin Gülnaz bir qədər həyəcanlı görünürdü. Bu, Anuşun da gözündən yayınmamışdı: Bu gün bir az həyəcanlı görünürsən, deyəsən, Moskvanın gözəlliklərini görmək üçün səbirsizlənirsən, hə? Anuşun sorduğu suala elə özünün də cavab verməsi Gülnazın işini bir qədər yüngülləşdirdi və o, şux səslə dedi: Bəs necə, zarafatdır, ağzında Moskva deyirsən. Sən burada yaşadığın üçün bu sənə bir az qəribə görünə bilər, amma mən bu günü düz on ildir gözləyirdim.

Onlar şəhərdə doyunca dolaşdıqdan sonra, Anuşun təklifi ilə, Moskva çayı sahilində yerləşən məşhur alış-veriş mərkəzinə getdilər. Əvvəlcə nəfəslərini dərib bir qədər dincəlmək üçün kiçik və çox rahat görünən bir kafeyə girdilər. Şirin söhbətə başları qarışdığından Anuş vaxtın necə keçdiyini hiss etmir, Gülnaz isə, Anuşa sezdirmədən, hərdənbir saatına nəzər salırdı. Gülnaz: İndi də bir az alış-veriş etsək, pis olmaz, – deyə üzünü Anuşa tutdu. Anuş elə Gülnazdan bu təklifi gözləyirmiş kimi cəld ayağa qalxdı, qarsonu çağırıb hesabı ödədi və onlar alış-veriş mərkəzinin ikinci mərtəbəsinə qalxdılar. Bir az alış-veriş etdikdən sonra Gülnaz Anuşdan nəsə soruşdu və Anuş sağ əli ilə mərtəbənin o başındakı tualet tərəfi göstərərək: Mən də sənin lə gəlimmi?, – deyə soruşdu. Gülnaz: Yox, yox, narahat olma, sən alış-verişini et, mən bu saat qayıdıram, – deyə inamla dilləndi. Anuş mağazaya girdi, Gülnaz isə iti addımlarla mərtəbənin o başına doğru addımladı. O, yolda saymazyana dönüb geriyə baxdı və Anuşun mağazaya girdiyindən tam əmin olduqdan sonra addımlarını bir qədər də sürətləndirdi. Pilləkənlərdən ildırım sürətiylə enən Gülnaz cəld bayıra çıxdı, sağa-sola baxdı. Bir qədər aralıda taksi dayanmışdı. Gülnaz əli ilə taksiyə işarə elədi. Taksi dərhal yerindən tərpənsə də, Gülnazın ürəyi dözmədi, taksiyə tərəf qaçmağa başladı. Cəld maşına oturub əlindəki kağız parçasını sürücüyə uzadaraq: Məni təcili bu ünvana çatdırın, – dedi. Sürücü bir qədər maraq və təəc-

cüblə tələş içində olan müştərisini süzdü: Narahat olmayın, vaxtında çatarsınız.

Maşın yenicə yerindən tərpənmişdi ki, işıqforda durdu. Gülnazın sanki ürəyi yerindən çıxacaqdı. O, tələsik çantasından 50 dollar pul çıxarıb sürücüyə uzatdı: Xahiş edirəm, sürətlə sürün, mən təcili orada olmalıyam. Pulu görən taksi sürücüsü hər şeyi anladı. Yaşıl işıq yanmadan tərpəndi.

Taksi üçmərtəbəli binanın qarşısında dayandı. Buyurun, bu da sizin ünvanınız, – deyə sürücü əli ilə sağdakı binanı göstərdi. Taksi sürücüsü maşını kifayət qədər sürətlə sürsə də, Gülnaz üçün elə bil uzun bir müddət keçmişdi. Tələsik halda qarşıdakı binaya tərəf qaçdı, icazə almadan içəri girmək istəsə də, qapıda dayanan polis qarşısını kəsdi: Vətəndaş, görmürsünüz, nahar vaxtıdır, bir saat sonra gəlin. Gülnaz üçün indi hər saniyənin mənası vardı, nəinki bir saatın. Yer-göy Gülnazın başına fırlandı, həyəcanından tarazlığını itirib yerə yıxıldı. Çaşbaş qalan polis işçiləri nə edəcəklərini bilmədilər, nəzarət məntəqəsinin müdirinə məlumat verdilər. Nəzarət məntəqəsinin müdiri Gülnazı içəri aldı, həkim çağırtdı. Polis işçilərindən biri tibb bacısının köməyi ilə Gülnazı çarpayıya uzatdı. Həkim Gülnazın təzyiqini yoxladı: Təzyiqi çox yüksəkdir, belə yüksək təzyiqə necə dözür? – deyərək ona bir dərman verdi. Sonra o ətrafdakılara: Bir az dincəlməyə ehtiyacı var, qoy burada uzanıb dincəlsin, biz isə rəhbərliyə xəbər verək, – deyib otaqdan çıxdı. Tibb bacısı da onunla birlikdə çıxmaq istədi, lakin həkim: Sən hər ehtimala qarşı onun yanında qal, on dəqiqədən sonra bir dəfə də təzyiqini yoxla və hərarətini ölç, – deyə xəstəni göstərdi. Tibb bacısı geri qayıtdı. Gülnaz yuxuya getmişdi. Bu zaman polis işçilərindən biri əlində bir əl çantası içəri girdi: Bu, qadının çantasıdır, yıxılanda düşmüşdü, – deyib çantanı tibb bacısına uzatdı. Tibb bacısının gözləri açıq çantanın içindəki tünd-mavi rəngli pasporta sataşdı. Pasportu əlinə aldı. Ermənistan pasportunu görən tibb bacısı özünü itirdi, nə deyəcəyini bilmədi, çaşbaşhalda ətrafdakıların üzünə baxdı: Bu ermənin burada nə işi var? – deyə bir nəfər üz-gözünü turşutdu. Pasport dərhal əldən-ələ keçməyə başladı. Bu zaman həkimin göstərişilə Gülnazın hərarətini ölçmək üçün onun sinəsini bir qədər açmağa çalışan tibb bacısının əlinə nə isə toxundu. Tibb bacısı təəccübdən yerində donub qaldı. Onun əlinə toxunan Gülnazın sinəsində gizlətdiyi Azərbaycan dilində yazılmış doğum haqqında şəhadətnamə idi. O, şəhadətnaməni götürüb hündürdən oxudu: Musayeva Gülnaz Rasim qızı. Doğulduğu yer: Xocalı. Doğulduğu tarix: 22 yanvar 1984-cü il. Hamı birbirinin üzünə baxdi, nə baş verdiyini anlamağa çalışırdılar.

Çox keçmədi, qalstuklu, səliqə ilə geyinmiş bir nəfər yaxınlaşaraq nə baş verdiyini soruşdu: "Cənab səfir, bu qadın özbaşına səfirliyə daxil olmağa çalışırdı, birdən huşunu itirib yıxıldı. Biz də onu içəri almağa məcbur olduq. Pasportu erməni pasportudur, amma üzərində bir azərbaycanlı uşağın doğum şəhadətnaməsi var", – deyən nəzarət məntəqəsinin müdiri sənədləri səfirə uzatdı. Səfir onun üçün heç bir maraq kəsb etməyən pasporta ötəri nəzər saldıqdan sonra doğum haqqında şəhadətnaməni alıb baxdı, diqqətlə oxudu, yuxuya getmiş Gülnaza tərəf əyilərək bir ata nəvazişi ilə başını sığalladı. Çarpayının kənarında oturaraq Gülnazın əllərini əlinə aldı. Gizlətməyə çalışsa da, gözlərindən axan iki damla yaş yanağı aşağı süzüldü.

Gülnaz yuxusunda Xocalını görürdü...

Aprel 2020-ci il
Buzovna

DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.

YAPONİYA

SENDAY ŞƏHƏRİNDƏKİ MEDİATEKA

Mediateka 2001-ci ildə açılmış, tezliklə də Senday şəhərinin simvoluna çevrilmişdir. Onun inşası üçün elan olunmuş müsabiqədə 235 namizəd iştirak etmişdi. Yaponiya arxitektoru Toyo İto müsabiqənin qalibi olmuş və sonralar bu layihəsinə görə Venetsiya arxitektura biyennalasının "Qızıl şir" mükafatına layiq görülmüşdür.

Yeddi mərtəbəli mediatekada kitabxana ilə yanaşı teatr, kafe və kitab mağazası da fəaliyyət göstərir.

ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitetinin kollektivi universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Səidə Əliyevaya atası

Rafael Bayramovun

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

QƏBUL QAYDALARI

DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz.

http://e.dunyaschool.az/sagirdqebul/

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur. Diplom proqramında təhsil müddəti iki ildir (X,XI siniflər).

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

DÜNYA ANA MƏKTƏBİ

Ana Məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir. Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür. Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

Qəbul üçün tələb olunan sənədlər:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

ÜNVAN
Əcəmi Naxçıvani 9

TELEFONLAR
+994 12 563 59 40/47/48
+994 55 632 95 28

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seç!

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi